

# VƏTƏN HAVASI

**Eldar Güneyli**

# Vətən Havası

ELDAR GÜNEYLİ

**V**

ətən Hvası çalınırsa,

demək o Vətən bir gün öz

bağımsızlığını əldə edəcək

O tay-Bu tay birləşəcək, böyük

**AZƏRBAYCAN**

qurulub, ardından da ulu

**TURAN**

qurulacaq!

**Bu bitik Güney Azərbaycanın bağımsızlığına sunulur**

Eldar Güneyli – Almanya
www.eldar-guneyli.com

2024

***Əsərin adı*** ***Vətən Havası***

***Yazar***: ***Eldar Güneyli***

***Düzənləyən***: ***Həbib Sasanian***

***Grsfist*** : ***Taymaz Haray***

***Cap***: ***Almaniya***

***Sayı/Səvə*** ***1000/122***

***Yayınlayan***: ***Vətən Yayınlar Qrupu***

Çap və yayın haqqı qorunur
© Eldar Güneyli, 2024
© ........... Nəşriyyatı, 2024

Bakı, 2021

*İçindəkilər*

*Başlıq* ........................................ 5
*Qoşma- qoşuğun (şeirin) bu günki güney Azərbaycan mediyasında görüntüsü* ........................................ 11
*Ey Azərbaycan* ........................................ 24
*Baltacı Araz şairin xatirəsinə* ........................................ 27
*Ayağa dur, nə yatıbsan Azərbaycan igidi?* ........................................ 30
*21 Azər xatirəsinə* ........................................ 36
*İstiqlalçı şair Araz girsə xalqın rəfinə* ........................................ 38
*Elaldadıcı öndərlər, xalqını sözdə tovlar* ........................................ 40
*Türkcə yazmaq farsa hədə deyirlər* ........................................ 43
*Ulusumuz düşünür, tutsaqlıqda yaşamına* ........................................ 45
*Nasyonalizm ölkədə milli haqq ölçüsüdür* ........................................ 48
*Ana dili nədir?* ........................................ 51
*Görəsən bu İrançılar kimlərdir?* ........................................ 54
*Azərbaycan vətənimdir, qoymayaq batsın səsi* ........................................ 57
*Türk xalqı; nə zaman oyanacaqdır?* ........................................ 64
*Mədrəsə açın ulusuma öz ana dilində* ........................................ 66
*Azərbaycan nələr keçir başından?* ........................................ 68
*Bütün analara sayğı və hörəmət* ........................................ 70
*Ayrılıq* ........................................ 73
*Sərbəst ölkə bəsləyər vətən sevər insanlar* ........................................ 75

*Müsəlman ərkəklərimizin qadına dönyə baxışı ................ 78*
*Bahar gəlir yeni iliz mübarək olsun ................................. 80*
*Rasisti bir düşüncəni yayanlar ......................................... 82*
*Vətənim Azərbaycan ........................................................ 86*
*Vətənim özgür olsa!........................................................... 89*
*Kim olduğumu mən tanıtım sizə........................................ 92*
*Zəfərlər marşını babəklər çalar........................................ 95*
*Milli hərəkətə polad lazım dır .......................................... 97*
*Vətəndaşım, İgidim dur ayağa.......................................... 99*
*Araz, içim yanır bəsdir ağlatma ..................................... 102*
*Qarabağ çağırır bizi haraya........................................... 105*
*Milli şüar nə deməkdir?.................................................. 109*
*Babək qayıt tez qalaya................................................... 111*
*Bu Gecə.......................................................................... 113*
*Mənə söylə virus sənsən yoxsa mən?............................. 115*

## *Başlıq*

*Mənim yazqacım\qəlmim\ özəgə dilində yox,*
*Ana dilimdə yazmaq istəyir ...*
*Çünkü yazqacım ana dilində, düşmana qarşı güclü yarğıdır\silahdır\.*

*Bir ulusu ayırmaq istəyirsənsə dilindən*
*Yetər o ulusun dilini[1] kəsəsən məktəbindən*
*Bu düşüncə yürüdülür „iran fars dövlətindən"*
*Dilini alsan əlindən, yadıeğar mənliyindən*
*Ümmətç[2]ilik eyitimi ayırar kimliyindən*

*Dilmizi qorumaq özümüzü, soyumuzu, vətənimizi, kimliyimizi qorumaqdır. Bugün dilimizi, vətənimizi mənimsəməsək ayaq altında əzilib keçmişimiz, ötəkimiz\tariximiz\ soyumuz habelə gələcəyimiz yoxa çıxacaq. Öz uşaqlarila farsca danışıb, yazışanlar soylarına vətənlərinə, kimliklərinə son qoyurlar. Onlar fars içində fars,öz ulusu içində türk sayılmacaqlar. Onlar özlərinə daha özgələşib eləcədə manqurt olmuşlar.*

---

[1] *Bır ulusun dilini əlindən alıqda, o ulusun bütün varlıqlar əlindən alınıb yox olar.*

[2] *Müqəlled\iradəsiz, özünə güvəni\etimadı\ olmayan, təslim olan insan\.*

*Özünə dəyər ver yerində sayıl*
*Farsa kölə olma gözün aç ayıl*
*Uşaqa ver milli bilinc qal hayıl*
*Geçmişinə öz soyuna yovuşsun*
*Varlığına türk xalqına qovuşsun*

*Çünkü adam*

- ☑ *Öz varlığını tanısa, özünə inansa, özünə dəyər versə,*
- ☑ *başını uca tutar, alçaqların aşağılamasila üzləşməz.*

*Bu gün cox uluslu iran adlanan ölkədə egəmən olan fars aşırı ulusalcılığı Azərbaycan türk ulusu başda olmaq la fars olmayan uluslara öz qatı soyculuqla\şovinisti\ sömürgəçilik ötəginə\tarixinə\ dayanaraq, yuxara vurğuladığım kimi bu ulusları öz keçəmişindən, kiməliyindən habelə bütün ulusal varlığından uzaqlaşdırıb, var gücü ilə fars ulusu içində ərıdıb yox etəməyə çalışır.*

*Maraqlısı; iran islam yönətiminin dinsəl eləcədə yöntəkisəl\siyasi\ öndəri, Seyyid Əli Hüseyni Xaməneyi, bu danılmaz gerçəkləri dilə gətirərək fars ulusunu çox qatı biçimdə belə bir çətin durumlara qarşı hazır olmaları üçün dönə-dönə oyarması ilginc dir.*

*Sözdə islam yönətiminin başında duran kişi, aydıncasına açıqladığı belə bir gərginliyi, fars ulusuns*

*düşər(rəva) görmədiyi halda, bu gərginliyi Xaməneyi ilə farsların özləri bilərəkdən irandakı fars olmayan uluslara uyqulamasıdır. Bildiyiniz kimi fars faşist egəmənliyi iranda, fars olmayan ulusların üzərinə onların bütün ulusal-uyğar(mədəni) habelə dil kimliklə varlıqlarını yox etmək yöntəkisini(siasətini) yürütməkdədir.*

*Seyid Əli Hüseyni Xaməneyi-nin yuxarıda vurğulanan yönətkiləri habelə çeşidli-ayrımlı baxışı deməli(yəni) iran egəmənliyinin farsları qorumaq, ancaq bunun tərsinə olaraq fars olmayan ulusların üzərinə yox etmək acımasızlığı ilə özgələşdirmə kimi soyculuq yönətkisini yürütmək düşüncələrilə işləri, hər bir güney Azərbaycanlı türk kişisində ürək ağrısı yaratması habelə ağır bir toplumsal alızlığı(xəstəliyi) birdə uyğar dil yarasının uluşması ilə sonuclanmasına inanıra.*

*Ona görə də düşünürəm Seyid Əli Xaməneyi-nin bu düşüncəsi, eləcə də bütövlük də yeni ələ gəlmiş habelə qısa ömürlü, qondarma iran fars dövlətçilitinin keçmiş pəhləvi lə indiki fars mulla yönətiminin yürütdükləri bu kimi bir quramsal(nəzəri) eyləmsəl(əməli) yönətkiləri qarşısında, hər bir Azərbaycan türkünün ulusal duyunc(vicdan) habelə yurd sevərlik borcu olaraq, həmi güney Azərbaycan türk xalqlarının, ən təbii insanı, milli-mədəni haqlarını insanlarimızın tək- təkinə tanımalıdır. Həm də türklük-*

*Azərbaycançılıq bilincinin\şüurunun\ dirçəlməsində qatqıda bulunub türklərə öz ulusal-kişilik\milli-insanı\ özgürlüklə bağımsızlıqlarını qazanmaları üçün yazqacı\qələmi\ əlinə alaraq öz beyin habelə ürək düşüncə ilə duyğularından yararlanmaqla, iran dövlətinin bu çirkin farslaşdırmaq yönətgisini aydınlaşdırmalıdır.*

*Üstəlik fars dövlətçiliyi ilə mullaların əl bir olub birgə yürütdükləri türklüklə Azərbaycançılığı aradan aparmaq kimi pis üzlü amaclarına çatmaq yolunda yürütdüyü düşüncəsəl habelə uyğulamalı\əməli\ işlərinin qarşısını almaqda tüm var gücü ilə çalışmaq görəvində dir.*

*Məndə bir güney Azərbaycan türkü olaraq yazqacı\ əlimə alıb ulusal qonular haqında yazdığım "VƏTEN HAVASI" adlı bitiyimi\kitabımı\, öz gözəl Azərbaycan yurdumla sayğı dəyər türk xalqına sunuram. Ancaq mənim bir rumantik qoşar\şair\ – yazınçı\ədəbiyyatçı\ olmadığımı da burda vurğulamaq istəyirəm.*

*Yurdumdan uzaqda eləcə də yad bir öılkədə sürgün durumda yaşadığım sürəcində; öz Vətən özləmimi, Vətənim Azərbaycanın ikiyə bölünməsi, özəlliklə də ana yurdum güney Azərbaycanda ana dilimiz türkcəsinin*

*oxullarda\məktəblərdə\ əyitim eləcə də yazılıb oxumasına iran dövləti yönündın qadağa qoyulmasıdır.*

*Başqa yöndən keçən doxsan neçə il sürəcində güney Azərbaycan türk yurdunun fars faşist egəmənliginin yürütdüyü yönətkilər sonucunda param-parça olunması dır.*

*Bu acımasızlıqlar hər bir Azərbaycanlə eləcə məndə bir örək yarası olaraq, xalqla vətənimdə bu gerçək gedişatı, qoşuq biçimində yazdığım bitik „duğusal elmcə də kökləşik\klassik\ yazın\ədəbiyyat\ baxımından uzaq görünsə də“ mən bu düzənli\nəzm\ yazılarının hər bir dizə\misrə\ ilə bölməcəsində\bəndində\; öz düşüncələrimi ulusal türklüklə Azərbaycançılıq duyusunu, vətən sevərlik düşüncəsini; düşündəmə, düşünbilim\fəlsəfi\, yönətkisəl\siyasi\, ekonomi\iqtisadi\ habelə tüzəsəl\hüquqi\ açılardan bu bitikdə toplamağa çalışmışam.*

*Başqa hər bir yazılı yapıtda\əsərdə\ olduğu kimi, mənim yazdığım „Vətən Havası“ bitikdəd də, yanlış, yarımçılıq habelə çatışmamazlıqlarının olmasından arxayınam. Ona görə də bu bitikdə ola biləcək hər türlü yanlışla, çatışmamazlıqları dəyərli oxucular la tənqidçilərin dartışmasına buraxıb, gülər üz, açıq beyinlə ola biləcək bütün qınaqları doğal habelə gözəl bir qarşılama sayıram.*

*Bu bitikdə yazdığım qonuların, İran fars dövləti yönündən bütün ulusal-uyğar haqlarından yoxsun edilərək, ağır basqila özgələşdirmə yönətkiləri ilə üzləşən güney Azərbaycanlı türk soydaşlarıma yararlı olmasına, onların ulusal tinlərinin\ruhlarının\ oyanıracağına inanıram. Ancaq vətən havası xalqın içındə çalınırsa, demək o vətən tez-gec quşuqsuz\şübəhəsiz\ bir gün öz bağımsızlığını əldə edəcəyinə inanıb, süzümə . qoyuram.*

*27.02.2017*

## *Qoşma- qoşuğun (şeirin) bu günki güney Azərbaycan mediyasında görüntüsü*

*Bu günlər sanal bağlar ortamlarında(məcazı şəbəkələr mühitində) özəllik'lə telgəramdakı toparlarda bir para qoşma yazılarla tuşlandım. Ancaq onların bir çoxlarında, yazının hankı alan (sahə) yoxsa qonuda olduğunu anlamadım. Doğrudur „Tarix Nadir" bityinin (kitabının) hamısını oxumamışam; Ancaq qoşarların hankı çağda eləcə də harada yaşaması ilə düşüncəsi, məni ilgiləndirdi. Bu çağda habelə yurdumuz Azərbaycanda yaşayırsa! Nədən öz yaşamına, öz toplumunda gedən yönətkisi (syası), tüzəsəl (hüquqi) habelə ekonoəmi (iqtisadi) gerçəkləri görməzdən dağ, dərə, daş, havadan ... sözcükləri toparlayıb özünün də, ulusumuzun da boş yerə sürəsini (zamanını) alır?*

*məşəhədi ibad demişkən:*

*- „Heç hənanın yeri dir mi?*
*- Bu nədənə görə, bu günkü çağda atalar demişkən:*
*-„hər deyimin, çağı ilə yeri olması gərək dir" diyə*

*-Qoşma-qoşuğa(şeirə) düşüncə baxımından qonuya toxunmaq istəyirəm.*

*-Qoşma-qoşuq deyəndə eləcə də eşidən də, qoşardan söz gedir. Çünkü qoşmanı yaradan qoşar dir.*

*Qoşar(Şair) deyəndə, toplumun yazın(ədəbiyyat) baxımndan aydın kəsimi adamın gözünə gəlir. Bildiyiniz kimi, toplumun aydın kəsimi təkəcə qoşar dəyil, düzyazı(nəsər) yazanlar da toplumun yazın(ədəbiyyat) baxışından aydınları ilə öndərləri toplumun tini(ruhu) ilə düşüncəsini yansıdan dili sayılır.*

*Ancaq Qoşar qonusuna qayıddıqda, mənim dönyə(dünya, dönrəgə) baxışımdan qoşar toplumun daha güclü habelə duyğulu adamları sayılır.*

*Özəlliklə qoşma topluluq içində toplumda yaranan hər bir olayın süzməsini (şirəsini) o topluluqa yansıtır. Qoşar az̀la öz neçə düzənlik beytlik yaxud səhifəlik yazını bir neçə yarım düzənli (misralı), bir bitigi neçə bölümcəli(bəndli, paragraflı) qoşuqda qayğı-kədər, üzüntü, sevəgi, igitsəl (qoçarsal, həması), acımasızlıq(zülmləri), haq-haqsızlıq, başarı-başarısızlıq ... qonularında olan sözcükləri ilə, duyğulu düşüncəsini aoxucuya sunur (təqdim edir).*

*Dırnaq arasında deməliyəm Qoşarlar incə duyğulu, arın\təmiz\ ürəkli çox sevimli, qanı isti habelə çox kişisevər\adam sevər\ biriləri olarlar. Ancaq heç bir düşüncə də kəsin \qəti,mütəlq\ dəyil .*

*Hər düzən\nəzm\ ya bir bölümcə qoşma-qoşuq toplumda yaşanan bir qonunun\mövzunun\ anlamını araşdırıb, ulusuna yansıdar.*

*Qoşarın düşüncəsini hər bir qoşuqda açıqlamağa çalışsan qat-qat beyətlərlə bitiklər yazmaq aolar. Ancaq buda qoşarın eləcə də oxucunun düşüncə düzeyindən \səviyəsindən\ asılı yaxud bağlıdır.*

***Ancaq „qoşma-qoşuğa“ iki baxış var:***

*Brincı baxış:*

*-bir sıraları qoşuğa önür, incəyapım \hünər-incəsənət\ açısından \küncündən\ düşünüb, yazırlar. Bu üzdən, şişirtəmə, böyütmə\təərif\, övmə \təmcid\, tanıtma \vəsəf\, düş\röya\ habelə başqa yazın incəyapım, önürləri baxımından anladırlar. Farsca da bir deyim var: „hünər dər xidmət hünər”= İncəyapım önür, yaxud yaradıcılıq yanlız o yaradıcılığın qulluğunda olmalıdır”. Sadə dildə desk “yaradır ki yaradmış olsun”, yaxud yaradıcılar sırasına*

*qovuşsun. Bir sıra rəsamlar kimi yaradıcılıqlarında topluluqda yaşayan qonular için heç bir anlam görünmür.*

*İkinci baxış:*

*-mənim „qoşma-qoşuğa“ dönərgə baxışım burada yer alır.*

*-Qoşma, ulusun eləcə də toplum ilə topluluğun yaşam qulluğunda aolması gərəkdir. Yoxsa adam habelə toplum olmayan yerdə istər toplum kiçik bir oğuş(ailə) ya da böyük bir topluluq aolsun. Önür, incəyapım yaradıcılığı o toplumda heç bir anlamı yoxdur. Qoşar öz çevrəsində yaşadığı çağın-dönəmin gedişlərini, düşündəmə, düşünbilim(fəlsəfəsini); fəlsəfə deyəndə, hər olayın nədənlərini anlatar) yönətkisini (siyasətini), kişilərin toplumda yaşamını, ekonoəmi (iqtisadı) tüzələri(hüquqları) eləcə də toplumun, adamların tinsəl (pisikolojı- ruhi, rəvanı) durumlarını araşdırıb, ulusunu yazın(ədəbiyyat) aracılığı ilə bilgiləndirib gözünü açmalıdır.*

*-Çünkü qoşar dediyimiz, toplumun aydını eləcə də düşüncə baxımından öyrətməni sayılır. Özdəş anda(eyni zamanda) toplumun yuxarı da vurğuladığımız gerçəklərə yiyə olduğu düşüncə eləcə də toplumun güzgüsü (aynası) ilə*

*tini\(ruhu\) habelə dili deməkdir. Başqa deyim'lə toplumda yaşanan olayların yansıtan \(əkəs etdirn\) bitimcisidir \(fotografçısı, təsvir edicisi \).*

*-Qoşar topluluqda yaşanan qayğı-kədər, üzüntüləri, nisgiləri, ayrılıqları, uzaqlıqları, acımasızlıqları, eşitsizliyi \(ədalətsizliyi\), tansızlıqları \(haqsızlıqları\), uydurmacılıqları \(saxta karlıqları\), dələdüzlükləri \(şarlatan bazlıqları\), yalançılıqları, şadlıqları, düzgünlükləri, arınlıqları \(təmizlikləri\), sevgiləri eləcə də gözəllikləri... tomlum dan alıb, o topluma özəllik lə öz dönyə \(dünya, dönrəgə\) yaşam yöntəmini habelə baxışını duyğulari' la yansıtır \(əks etdirir\).*

*-Qoşar toplumda gedən acımasızlıqları, eşitəsizəliyi, bilməzliyi\(cəhaltı\) eləcə də taptalanan kişi tüzələrini \(insan huquqlarını\) ulusuna anladıb, ulusuna yaratdığı igitlik qoşmalarında acımasızlığa, tansızlığa taptalanmış kişi tüzəlrinə qarşı dirənməyə çağırmalıdır.*

*-Adamları bilməzlikdən çıxarıb, duyğulandırıb, geri qalmış toplumu irəliləməyə habelə gəlişməyə \(inkışafa\) yönətəməli dir. Bunun dışında qoşuğun toplum ortamında anlamı yoxdur. Çünkü qoşar, oxucuda eləcə də toplum da gedən olayları ulusuna yansıta bilmsə, oxucuda duyğu yaradıb etgi buraxa bilməsə, oxucunu yürüyüşə\(hərkətə\)*

*eləcə də irəliləməyə gətirə bilmsə; o qoşuq heç bir kişini yaşadmayacaq habelə topluluqda yaşamayacaq.*

*-Atalar sözü var, deyərlər: Hər oxuyan „Usta Pənah" olmaz.*

*-Eləcə də hər qoşma- qoşuq yazana qoşar deməzlər, anlamındadır.*

*-Hər kəs də öz ölçüləri ilə yaxud dönyə baxışları ilə qoşuğa habelə qoşara dəyər verər.*

*Mənim bugün yazdığım eləcə də düşündüyüm qoşuq ilə qoşar üzərində olan yaşam dönərgəlrini dyişmiş ölməz qoşarlarımızdan bir neçəsi örnək aolaraq: Şəbistərli Möcüz(Möcüz Şəbistəri), Əli Əkbər Sabir Tahirzadə, Məmməd Araz, Baltacı Araz, Səhənd Qara Çorlu, ulu Xəli Rza, Bəxtiyar Vahabzadə ... qoşarlar kimi nə tək toplumda gedən olayları öz duğuları'la ulusuna yansıtmalıdırlar.*

*Ancaqo toplum da adamların bir-birinə özədəş anda topluma yanaşmasını eləcə də ondan yaranan ilə yaşanan özəllik'ləri qoşma-qoşuğunda ulusunun ürəyində çeşidli yöntəmdə, janırlarda örnəyın, sevəgi, gözəllik, arınlıq, umud, şənlik habelə şadlıqlar yaradmalıdırlar.*

*-Yeri gələrkən, adamları üzub, qayğı-kədər, nisgil, özləmlər (həsrətləri) ürəkəlrdən qaldırıb sevgiyə, gözəlliyə yönləndirməlidirlər.*

*-Qoşar, toplumun gerçək axsaqlıqlarını araşdırıb ulusuna gərəkdiyi türləri (janrları, tərzləri) yazıib, qoşma qoşuqlarında igitliklər yaratmaqla, toplumu dirnişə çağırış edib ao ulusu açmaz durumlardan qurtarmaq görəvindədir.*

*-Bu içərikdə (möhtəvada) yazılan qoşuqlar, çağla (zamanla) toplumun elbilgisi (FOLKLÓRU) ilə yazınını(ədəbiyyatını) yaradıb, genişləndirmək'lə o ulusun varlığını yansıtan əkincini"uyğarını(kültür-mədəniyyətini)" yaratmış olur. Böylə bir düşüncəyə yiyə olan qoşar, yaratdığı eləcə də topluma yansıtdığı qoşuqlar ilə türələr toplumunun, ulusunun, yurdunun gəlişməsində habelə ilərilməsində böyük oynam göstərib (rol oynayıb), ulus içındə özəl yer alarlar.*

*-Eləcə də ölməz el qoşar-qoşuqçusu adlanıb habelə adlanarlar.*

*-Başqa içərikdə yazılan qoşma-qoşuqlar çağ içındə yazar özünü eləcə de öz quşağını razılaşdırsada, gələcək quşağına topluluq içərisində heç bir etgi(təsır)*

*buraxmayacaq. Çünki gələcək quşaqı fars soyculuğu yönündən oxul-məktəb, mediya araçılığı ilə fars yazın(ədəbiyyat) uyğarı(mədəniyyəti) içində gəlişdirilməkdədirlər.*

*Nə isə qayıdaq bu günkü güney Azərbaycanda özəllik'lə sanal aortamlarında yazılan-yayılan qoşma-qoşuqlar ilə qoşarlarımıza bir qısa baxış:*

*-Göründüyü kimi, bilgisunar ortamında birçox gənc eləcə də böyük ünlülərimiz yazarlıq işində olaraq, gözəl qoşmalar yazıb- yaradıb eləcə də yayırlar.*

*Mən bu yazıları öz dönyə baxışım'la üç bölümdə sıralayıram:*

*-Birincisi; yazıqlar olsun bir sıraları Azərbaycan öz türk yazınından uzaq "fazri-azəricə" yazırlar. Ancaq nə yaxşı olardı ki; ilk Azərbaycan türkcəsini öyrənib sonra yazqacı (qəlmi) ələ alıb eləcə də Azərbaycan türkcəsində doğru - düzgün qoşma-qoşuqlarını yazıya keçirib, gənc quşağı(nəsli) doğru düzgün ana dilində tərbiyə etəmiş olalar.*

*-İkincisi; toplum da ulusun içındə qoşma alanı(sahəsi) eləcə- də qonuları çox genişdir. Ancaq böyük ünlülərimizdən özəllik'lə yazıçılardan yurdumuzun,*

*ulusumuzun bu günkü durumda gözləntisi var; İgitlik qoşma-qoşuqları yaradıb, ulusumuzu gərginlik'lə bilməzlikdə ki yaşamdan qurtamağa çalışmaları daha çox olardı.*

*-Fars soyculuğu\şovonizmi\ yönündən yurdumuzla dilimizin yox aolmasının qarşısına çıxaraq, gənclrimizi oxullarda\məkətəb-mədrəsələrdə\ özgələşmə ilə özümləmə\asimilasiyon\ sürəcindən uzaqlaşdırsınlar. Devrimsəl əzgilər\mahnılar\ yazıb-yaradmaq\la öz vətən borclarını ulusuna vermiş olsunlar.*

*-Üçüncüsü yenə də yazıqlar olsun sanal ağlar aortamında yazılıb yayılan qoşmaların böyük çoğunluğu örək açan eləcə də sevindirici dəyil.*

*-Üstəlik yazılan qonular yurdumuzla ulusumuzun yaşam durumundan çox uzaq dır. Fars sömürgəçiliyi Urmu Gölünü eləcə də ardınca bütün kənd-şəhərlərimizi qurutmaq habelə yer alt-üst varlıqlarımızı çalıb çapmaq düşüncəsindədiırlər.*

*-Görəsən mürgüləyən yazar- qoşarlarımızı kim oyadacaq?*

*-Hankı çağ oyanacaqlar?*

*-Burda 35 - 40 milyon Azərbaycan türk toplumdan söz gedir.*

*Sözün qısası bir deyim var; deyərlər:*

*-Qurbağanı qaynar su qazanın içinə atsan, sıcaq suyun istisinə dözəbilməyib, elə o sıcaq sudan özünü dışarı atar. Ancaq Qurbağanı qazan da soyuq suya salıb suyu yavaş-yavaş istilədib qaynara gətirsən, Qurbağa suyun qızmasını duymayıb yavaş-yavaş suyun qaynara gəlməsi 'lə qıç-qolu tutulub daha özünü sudan dışarı atmasına gücü qalmayacaq, sonucda isə öləcək dir.*

*-Bu deyim'lə olay bizim güney Azərbaycanda bilgisunar ortamında yazılan eləcə də yayılan habelə ulusunun yurudunda yaşamasına bənzəyir. Vətənləri ilə özlərinin fars soyculuğunun cızdıqları çizgiləri içındə yox olmasının düşüncə ayrımlığında(fərqində) deyılər.*

*- Yüz ilə yaxın dır Azərbaycan türk ulusunun yüzdə doxsan beşi fars soyculuğu yönündən özümləmə(asimilasion) yöntəkisi sürcində dil, yazın eləcə də düşüncə baxımından fars dil , yazın uyğarlıq qazanında əriməkdə dir.*

*-Başqa deyimlə desk; Azərbaycan türk toplumunun yüzdə doxsan beş topluluğu  fars soyculuğu dil- uyğarlıq tutsaqlığında yaşamaqda dır. Bu vurğuladığım say yalnız topluluq\cəmiyyət\ baxımından yurdunda özgür yaşamağın göstəricisi dir.*

*-Qalan yüzdə beş sayı da yazıqlar ulsun fars soyculuğunun dustaqlarında, yaxud gizli yaşamaqda habelə yurdlarından didərgin düşüb vətənlərindən uzaqda ömürlərin sürməkdə dirlər.*

*Müslman ümmətində bir deyim var deyərlər:*

*-Müsəlman ölüb, torpağa basdırılandan sonra; „ölü başını qavzayıb əhlət daşına vurub, deyər:*

*-ölən mən idim mi?“*

*-Ancaq deməzlərki iş-işdən keçdikdən sonra nə yararı var!*

*Ay bilgisunar ortamında 35-40 milyon Azərbaycan türk toplumun aydınları ilə yazın öndərləri! ölmədən öncə başınızı əhəlt daşına vurub özünüzə gəlin. Baxın vətəniz ’lə ulusunuz:*

*- Hhankı durumda[1] çabalayıb, can vermək də dir?*

---

[1] *fars soyculuğu dil, yazın uyğarlıq əritmə habelə itib batıb yox olma sürəcində*

*-Siz yazarların görəvi bu gün nədir?*

*-Hankı qoçaqlıqlar sizlərdən gözlənilir?*

*-Yazıqlar olsun nə yazırıq;*

*-Nə də yazılmış ulusumuzun işinə gəln yararlanan yazıları oxuyub yayırız\.*

*Görəsən gələcəyimiz hara gedir?*

*-Olmaya Qurbağa tək qazanda soyuq suyun içındə qaynamağa gedir?*

*-Nədən bugün Möcüzlər, Sabirlər, Məməd Araz eləcə də Bulud Qaraçorlu, Baltacı Araz lar... kimi qoşar doğulmur?*

*-Niyə bizim ulusumuz uzaq görnli dəyil ?*

*-Bir ulus bir belə də qısa görüşlü aola bilr mi?*

*Fars soyculuğu hər gün torpaqlarımızı parçalayıb yadlara pay verir.*

*-Dilimizi yasaqlayıb ulusumuzu özəllik'lə gəncəlrimizi oxullarda yurdlarına, ulusuna, ötəkinə, dili ilə yazınından yadırğalaşdırıb, yadlaşdırırlar. Gələcəyəmizi silib, soyub\süpürüp\ itirmək istəyirlər.*

*-Bizim gənclərimiz, qoşuqçularımız sanal dönrəgədə nəlr'lə başların qatıblar?*

*-Adam utanır bunlara toxunsun.*

*Atalarımız demişkən:*

*-„hər sözü deməyin özəl yeri ilə çağı var“.*

*Görəsən (əcəba) bu gün bilgisunar aortamlarında yayılan qoşma yazıların yüzdə neçəsi vətinimiz Azərbaycan üzərində ulusal qonulara görə eləcə də ulusumuzun bu gördüyümüz gərgin yaşam üzrə igitlik qoşmalar yazılıb yayınlanır?*

*Çağı yetişməyib mi?*

*-Yazarlarımız özəllik'lə qoşarlarımız bu alanda igitlik- lər yaradsınlar?*

*05.04.2016*

## *Ey Azərbaycan*

*Ey Azərbaycan, sənə olsun canım qurban*
*Sən mənim vətənim, yurdum yuvam*
*Necə ayrılsın səndən el-oban?*
*Səndə mən doğuldum, göz açdım vətən*
*Səndə mən büdrəyib, dil açdım vətən*

*Ey Azərbaycan*
*Ey Azərbaycanım*
*E... hey... Azərbaycan*

*Sənə olsun canım qurban*
*Sən mənim vətənim, yurdum yuvam*
*Səndən sürgün düşdüm bir yuva qurdum*

*Sənin var qoca tarixin*
*Odlar yurdu adlanır adın*
*Alovlanır yanır hər bucağın!*

*Sən babəklər yurdusan*
*Ulu Xəlil, Məmməd Arazlar*
*Quzeyində istiqlalın mubarək*
*Gülüstan yaratdı ulu Bəxtiyar*
*Güneyindən qalxmış Baltacı Araz:*
*Onun sözü bu an bizə dərmandi*
*:"O tay ilə butay vahid bir candır*
*Adı odlar yurdu Azərbaycandır"*

*Ey Azərbaycan*
*Ey Azərbaycanım*
*E... hey... Azərbaycan*

*Sənə olsun canım qurban*
*Sən mənim vətənim, sən mənim yurdum*
*Səndən sürgün düşdüm bir yuva qurdum*

*Sən alavlar yurdusan*
*Sönməyəcək od közün, yaxacaq düşmanların*
*Daşnak ermənidən alacaq torpaqların*
*Harayların güneyində, göyələrə yüksələcək*
*Quzeyin ordusuda, əminəm dirçələcək*

*Otay-butay anlamı bir daha olmuyacak*
*Bütöv Azərbaycan yenidən qurulacaq*
*Xalqımız birləşərək şən günlər yaşayacaq*

*Ey Azərbaycan*
*Ey Azərbaycanım*
*E... hey... Azərbaycan*

*Sənə olsun canım qurban*
*Sən mənim vətənim, yurdum yuvam*
*Səndən sürgün düşdüm bir yuva qurdum*

*E... hey... Azərbaycan*
*Ey ana yurdum.*

*07.02.2014*

## *Baltacı Araz şairin xatirəsinə*

*Azərbaycan sevgisi'lə boya başa çatdın sən*
*Xalqını sevə-sevə, özgə dilin atdın sən*
*Böyük-böyük amaclar ürəyində tutdun sən*
*Vətənin tutsaqlıqdan azad olmaq amacın*
*Fars rasizmin vətəndən kökün yolmaq amacın...*

*Oxulda özgə dilin, yüklədilər belinə*
*Dedilər bundan belə düşmən ol öz elinə*
*Vətən oğlu, ğeyrəti burda gərək bilinə...*
*Sən dözmədin bu zülmə, şovinizmi daşladın*
*Vətəni qutarmağa, milli yolu başladın*

*Ana dili gücüilə, çatdı elmin zirvəyə*
*Sınmayıb baş əymədin, pula, zora kötəyə*
*Toplumdan nədənləri, söküb tökdün ətəyə*
*Fars dilini öyrəndin farsca düşünmədin sən*
*Şovonizmin zülmünə, susub üşünmədin sən*

*Oxutdular, fars sevn amaca yol olasan*
*Fars rasizimin planın çizməyə qul olasan*
*Xalqı asimilə etməyə, nədənsiz... rol olasan*
*Sən azadlıq nəğməsin ritmə çəkən tar oldun*
*Yurdunu tikmək üçün bir gözəl memar oldun*

*Əlli səkkiz yaşında bitdi şərəflə ömürün*
*Sən getdin..., əsərlərin parıldayır sanki gün*
*İndi əl yazıların açır xalqımdan dügün*
*Milli qurtuluş xalqın istədiyi hədəf dir*
*Vətənin azadlıqı hürriyti şərəf dir*

*Babəkə bənzər igid, vətən səni haraylar*
*Butay Baltacı səslər, Araz deyər otaylar*
*Kitabların, əl bə əl xalqın içində yayılar*
*Sənin geniş düşüncən özgürlüyə yönəldər*
*Yayılsa bu düşüncə, gəlişməyi dirçəldər*

*Bütöv Azərbaycana gedən yolu başladın*
*Xalqımıza özgürlük diləyini aşladın*
*Yazınla, anlayışın şəklini naqışladın*
*Dedin*: *"otayla butay ayrılmayan bir-can dır*
*ləqəbi odlar yurdu, adı Azərbaycan dır"*

*Qarabağın işğalın gətirdin sən gündəmə*
*Bir milyon insan yanır bu həsrətə bu ğəmə*
*İnsafdımı hakimlər baş əyələr bu zülmə*
*Yazıların oxunub anlanacaq himlərin*
*Tərbiz ilə Garabağı qurtaracaq kimlərin?*

*Uyqarlaş-ın ey ustad, gördü işıq üzünü*
*Günəş oldu bu xalqa, ağartdı gündüzünü*
*Haqq nədir? haqlı kimdir? sən tanıtdın düzünü*
*İnsanları çağırdın çağdaş aydın olmağa*
*Öz haqların tanıyıb, zülmün kökün yolmağa*

*Getdin..., qoçaq igidlər davam verər yolunu*
*Türkçülüyün tanıtdın, sən sağını solunu*
*Göstərdin ..., el bağına ziyan vuran dolunu*
*Bir də doğar analar vətən oğlu nacisin?*
*Ulusumuz çağırır öz oğlu Baltacısın*

*Oxulunu bitirdin vətəndə çalışasan*
*Elin ğəm-kədərilə ömürlük alışasan*
*Yazıb yartmağınla dedin vətən yaşa sən*
*Yadigar qoyub getdin, qaldı səndən bir əsər*
*Oxuyub tanıtmasaq, xalqımız edər zərər.*

*27.01.2014*

## *Ayağa dur, nə yatıbsan Azərbaycan igidi?*

*Rasisti dövlət susdurur iranda türk hayını*
*Urmu gölün qurudur bağlayır axar çayını*
*Vətənimi duzladır beləcə verir payını*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

*Yer-yurdumun adlarını pozur yad adı yazır*
*Ev-eşiyin satdırır bizə dərin quyu qazır*
*Yurdundan köçüb gedənlər düzgün yolunu azır*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

*Dilimizi yasaqlayıb əridir yad dilində*
*Xalqı özgələşdirib əriyir fars elində*
*Uyğarlığın unutdurur əzir öz mənliyində*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

*Türkün dilin inkar edir qoyur adın azəri*
*Oxulda əyitimlədir yetişdirir fazəri*
*Onu caydırır deyir budur "gəlişmə" çarəsi*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

*Novruzda türk böcək olur təbrik edir farsları!*
*Türkləri inkar edir geri qalmış alçaqları!*
*Fars xalqına quyruq görür bu ali cənabları!*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

*Türk dilini yasaqlayır öyrədilsin "pars" dili*
*Vergilərlə çalışırlar çox yayılsın "yas" dili*
*Ölkəmizdə, oxullarda rəsmiləşsin "fars" dili*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

*Hər olanaq yaradır fars dilini yaymasına*
*Sosyal-media açır vergilərlə başqasına*
*İnsan haqqın pozdurur çıxır xalqın qarşısına*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

*Yurdum yuvam param-parça verirlər özgələrə*
*Xalqımız işsizlikdən, həsrət qalıbdır vətənə*
*Sürgün düşən manqurtlaşır deyir əşı mənənə*
*Ayağa dur nə yatıbsan, Azərbaycan igidi*

*İş yerimi bağladır göndərirlər Farsistana*
*Yer alt-üst sərvətlərimiz pay verilir Kirmana*
*Ələ baxım edibdir asılıyıq biz Tehrana*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

*Aydın  yüksək savadlım sürətlə manqurtlaşır*
*Uşağila fars dilində danışıb həm yazışır*
*Yazıq olsun bu xalqa öz soyundan uzaqlaşır*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

*Baba-kərəm burcudur şadlanır toy- şənliyində!*
*Muğamatı onudub hallanır özgə dilində!*
*Çağ sürəcində əriyir kökündən son yüz ildə*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

*Rasisti hakim farsa diyə, ğeyri farsa xor baxır!*
*Ulusalcı fikir yayır, dövran tərsinə axır!*
*İnsan haqqından deyənlər, haqqı yandırıb yaxır!*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

*Ötəkimi təhrif edir çaşdırır xalqı inan*
*Geri qalmış kuruşların düşüncə fikrin yayan*
*Utanmayıb özlərini göstərir "çağdaş" insan*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

*Firdovsi sevər farslar gerçəkləri bilməlidir*
*Fikirdən çağdaş olub irəliyə gəlməlidir*
*Çağın insan tüzələrin bəyənib sevməlidir*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

*Dövlət qurub xaxamlar gör necə ötək bastırdı!*
*Firuteşin burnun kəsib qulağından asdırdı!*
*Üstəliklə utanmadan daş üstündə yazdırdı!*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

*Irqıçılar cinayətə çoxlu ğürur duyurlar*
*Ənuşirvan, Kuruşlarların nağılına uyurlar*[1]
*Farsların həm adili həm də kəbiri olurlar*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

*Qondarma ötək yazıdırıb təhrif edir öyünür*
*Farsa ötək yaradılsın can dan başdan söyünür*
*İngilis damadının ürəyi yaman döyünür*
*Ayağa dur nə yatıbsan, Azərbaycan igidi*

*Ötəkində var Tümris tək döyüşçü qadınların*
*Qan içdirən Kuruşlara yurdunda madlıların*
*İstiqlalın almağına sarsılmaz övladların*
*Ayağa dur nə yatıbsan, Azərbaycan igidi*

---

[1] *Kuruş və "bəşər hüququnun mənşuru" həmçenin qondarma "Arya irqi" haqqında (3–bölümdə) yalanlara bu linkdə: http://bit.ly/2jkqivQ filmləri izləyə bilərsiniz.*

*Ölkəmizdə var tükənməz ziyalı aydınların*
*Baltacı Araz lar kimin istiqlalçılar varın*
*Qurtuluşa can atanlar igid-nər qoçaqların*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

*Yazılmış "**Azərbaycan buyludur istiqlala**"*
*"**Otay butay vətəndir**" "**Uyqarlaş**"[1] yadda qala*
*Üç "əsərdir" miras qalıb "Araz"dan istiqlala*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

*Ulusal bilincini yüksəlişə dalmalıyıq*
*Əzilmiş milli haqların bütünün almalıyıq*
*Vətəni qurtarmağa biz qalxan tək olmalıyıq*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

*Güneyimdə "Azərbaycan buyludur istiqlala"*
*Nə rəva sömürgədə xalqımız yenədə qala*
*Tutsaqlıqdan çıxış yolu iz salıbdır mahala*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

---

[1] *Baltacı Arazın uç əsəri, www.eldar-guneyli.com*

*“Uyqarlaş”ı oxuyanlar, yetişir bugün çağa*
*Haqlarına tanış olub, yad onu qoymaz lağa*
*Öz ayağı üstə durar, qoymaz özgələr sağa*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

*“Otay butay vətən dir” bitik adından bəllidir*
*Param-parça olmuş xalqın, vətənimin dərdidir*
*Yurdun özgür olmasına fikirsəl əsəridir*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi*

*Milli bilinc yarağına xalq varması lazımdır*
*Özgürlüyün manifestin oxuması lazımdır*
*Baltacını tanıyıb həm tanıtması lazımdır*
*Ayağa dur nə yatıbsan Azərbaycan igidi.*

*16.01.2014*

# *21 Azər xatirəsinə*

*İyirmi bir azər şərəfli gündür*
*Şanlı bir gün, amma kədərli gündür*
*Vətənə sayılan zəfərli gündür*
*Vətəni zülmüdən qurtardı bugün*
*Xalqın yaddaşında ucaldı bugün*

*Yirmi bir azəri dün basdırdılar*
*Otuz min kişiyə dar  asdırdılar*
*Ulusuma haqsız qan qusdurdular*
*Yandırdılar türkün dəftər kitabın*
*Axıtdılar qanın çoxlu insanın*

*Türklərin alavda yanan günüdür*
*Faşizmi yandırıb yaxan günüdür*
*Yağını vətəndən qovan günüdür*
*Sinəmizdə yanıxların közüdür*
*Ulusları özgür edən özüdür*

*Dirçəldəyin yenə gözəl dövranı*
*Firqə demokrat çalan havanı*
*Düşmənləri çaş baş salan zamanı*
*Xalqımın ğələbə çalan çağını*
*Ulusal haqını alan anını*

*Doğulmusan türk kökənli budunda*
*Üç rəngli bayrağın şanlı yurdunda*
*Qaldır göyə əssin odlar yurdunda*
*Yüksəlsə ulusun milli bilinci*
*Kəsər zülmü onun iti qılıncı*

*"Araz qan ağlayır" döyür dizlərin*
*Vətənin qurtulsun dedi sizlərin*
*Yirmibir azərdə şəhid izlərin*
*Tökülmüş qanları yerdə qalmasın*
*Birdə xalqa zülmlər bizdə olmasın*

*Ulusum ayağa durmalıdırlar*
*Nə qədər zülmə göz yommalıdırlar?*
*Yad eli vətəndən qovmalıdırlar*
*El qayğısı namusdur hər kəsə*
*Üç rəngli bayrağım yurdunda esə.*

*22.10.2013*

## İstiqlalçı şair Araz girsə xalqın rəfinə

*Xəyalçılıq düşüncəsi girəməz elimin səfinə*

*Kiміləri[1] mənəviyat həm əxlaqdan yapışır*
*İnsanlarla xəyalçılıq[2] düşüncəsin yazışır*
*Yaman gündə dərd içində öfkələnib çalışır*
*Səbəb nədir, niyə bunlar, nədənlərdən dərs almır?*
*İncələyib sonucların kütləni başa salmır?*

*1400 il mənəviyyat, əxlaqdan danışıblar!*
*Haqlar adı gələn zaman,"Allah"dan danışırlar!*
*Ulusumun aydınları, nədənin axtarırlar*
*Nədən belə özgürlüklə düşüncəsini yaymır?*
*Ziyalını xalqımıza, "axmaq insan"[3] tanıdır?*

*Deyir keçmiş tarix xalqa, amalımız varlıq dır*
*Bu yalana inanmaq düzgün yoldan azmaq dır*
*Xəyalçını ələşdirmək, topluma toxanmaq dır*
*1400 il gəlişmədik çağdan geri saldılar*
*Yalalçını tanıdanlar "kafir" adı aldılar*

---

[1] Cavad İsmayılbəyli (10.07.2013 GünAzTV-də)

[2] ***"İç dünyə" xəyaldı, dış dünyə gərçək, gərçəklərə düşün, xəyaldan əl çək!"***
**Baltacı Araz**

[3] *Cavad İsmayılbəyli (08.07.2013 GünAz TV)*

*1400 il yetmədi, yenə də biz sınayırıq*
*Dərdlərimiz üstünə yenə də dərd qalayırıq*
*Özümüzü şah-şeyxin əlilə talayırıq*
*Görəsən hara gedir, yeni gələn sabahımız?*
*Kıravatlı "sözdə aydın" gəlişən baxışımız?*

*Çağımın aydın kəsimi heç nədən anıdımır!*
*İstiqlaçı, milli yazar qoşarı tanıdılmır!*
*Adı-sanı düşüncəsi, yazısi tanıdılmır!*
*Deyirəm ki; şair Araz[1], girsə xalqın rəfinə*
*Xəyalçılıq düşüncəsi girməz elimin səfinə*

*Deyirlər ki: dinə inam, mənəvi düşüncədir*
*Dinə qarşı bir düşüncə, ulusun düşmənidir*
*Ulusumuz 1400 il, geriyə dönməlidir*
*Bu baxışlar səbəbdir ki, bizim toplum pisləşir*
*Çağ sürəci topluluqda aydınım geriləşir*

*Araz xalqa işıq saçan, düşüncəli ocaqdır*
*Sanma bulut araxasında, gömülüb qalacaqdır*
*Öz yerini xalqımızın, içində alacaqdır*
*Yazıları, düşüncəsi, çatacaqdır yurduna*
*Boykutçular üzü qara, olacaqdır buduna.*

*14.07.2013*

[1] *Söz düşüncədən(Baltacı Arazın yazılmış əsərlərindən gedir) nə şəxsdən.*

## Elaldadıcı öndərlər, xalqını sözdə tovlar

*Elaldadıcı hökmdarlar, tənqidçini gömərlər*
*Ara sıra yerə vurub, gah həbs edib söylərlər*
*Biri[1] "fitnə", o-birləri[2] "bozğalə" ad verərlər*
*Biri[3] "Xain", birisilər[4] "xəs və xaşak" deyərlər*
*Diktatorluq ürünü xalqımı geri salmqdır*
*İnkişafın azadlığı topluluqdan almaqdır*

*Kimiləri diktatoru, tənqid edib səsləyir[5]*
*Diktatorun zalim-qatil, olduğunu söyləyir*
*Onların kirli sifətin, xalqa gərçək pisləyir*
*Özümüzə gələn çağda, qabıqsız yomurtladır.*
*Sevmədiyi tənqidçini, o "əxlaqsız" adladır.*

*Diktatorun ürünü, toplum geridə qalmaqdır*
*Azadlıq yox ümmətçini, dolayıb ovlamaqdır*
*Ovladığının peşində, bir daha tovlamaqdır*
*Gəlin biz də öyrənib, çağ toplumda çağlaşalım*
*Tənqidçiyə xor baxıb, "əxlaqsız da" sanmayalım[1]*

[1] *Seyid Əli Hüseyni Xaməneyi(iranın dini eləcə də egəmən öndəri)*
[2] *Mulla Ehməd Xatəmi (Büzğalə = Geçı, (Tehran şəhərinin imam cüməsi)*
[3] *Hüsein Şəiyyətmədari, Xamənei-nin təmsilcisi, Keyhan qəzetinin müdürü*
[4] *Preyident Mahmud Əhmədinəjad, "xəs və xaşak=zir-zibil"*
[5] *GünAzTVinin aparıcısı 08.07.2013 tirixində*

*GünAz TiVi[2] yayımında, söz tənqidə yetəndə*
*Dar görüşlü dinçi kəsim, danışığı bitndə*
*Nala-mıxa vurub deyir, tənqidçinin peşində*
*Sorumlu kəsim mediyada, oxuyub bilməlidir*
*Çağın insan haqlarını, bəyənib sevməlidir*

*Aydınım da pisləyir, bu tənqidçi fikirləri*
*Öyrəndiyi feodalı, sistemin bilimləri*
*Uluşdurub bucürə dargörüşlü beyinləri*
*Deyirəm ki: 1400 il ovlanıb söz dinlədik*
*Çağımızda geri qalıb, nəyi biz mənimsədik?*

*GünAzın aparıcısı deyirlər çox danışır*
*Yayımların sonunda, müsəlman'la sağollaşır*
*Başqaların "zir-zibil", tənqidçiyə pis dolaşır[1]*
*Deyirəm: dargörüşlü, beyinli, yolundan cayar*
*Ziyalı bir tənqidçini, "yaği'la düşmən" sayar*

---

*[1] Hörmətli Günaz TV aparıcıları lütfən yayımlarda sorumluluq hissi daşıyıb, bir türkçü ziyalını tənqid etdiyi bir başqa kəsimi heç bir sənəd ortaya qoymadan, əxlaqsız eləcə də bilincsiz (Şüursuz) adlandırmayın. Bu işlər prezident Mahmud Əhmədinəjadlara yaraşsa da, biz türklərə yaraşmaz.*

*2* 08.07.2013 GünAzTV-də

*GünAz Tivi çalışır, zıyalılardan danışa*
*Keçmişdəki, yazardan, qoşarlardan yapışa*
*Elbəylik adından, təkrarən hey dartışa*
*Çağın milli yazarını, xalqıma boykut edir*
*Yayımında cin ilə bismillahdan söhbət gedir*

*Güneydə xalq hazırlanır, düşmən ilə çatışa*
*Xalqın haqqı var toplumda, fikirlər' lə yarışa*
*Baltacı tanıtılmır, düşüncəsin xalq tartışa*
*Geri qalmış, ziyalını tivi də"papaq" sayar*
*Başqa düşünən yazarı, danlayıb "alçaq" sayar*

*Elaldadıcı düşünən, çıxışında xalqı tovlar*
*Düşündüyü ölçüdə, onu yanlış yola yollar*
*Kütlənin güvənini alıb haqqın çöpə tullar*
*Adını düşüncəsin, tanıdırsa pisi çıxar*
*Bəlkə də tanıtmaqda, yanlışların izi çıxar?*

*09.07.2013*

## *Türkcə yazmaq farsa hədə deyirlər*

*Ruhani seçilib baş baxan oldu*
*Vədəsi tutmadı çiçəyim soldu*
*Verdiyi qərara sözündən doldu*
*Birinci qərarı urmunun gölü*
*Pər-pər olub soldu urmunun gülü!*

*Urmu gölün həlli buza qoyulsun*
*Dilimizə mamur təyin olunsun*
*Qeyri farslar ana dili oxusun*
*Dil fərhəngistanın[1] qərarı oldu*
*Ğeyri farsa ana dili gömüldü*

*Bizim vergilər' lə bitik yazırlar!*
*Tacik, əfğan üçün oxul açırlar!*
*Fars dilini ağızlara salırlar*
*Özlərini çağda"yüksək" sanırlar*
*Biz türkləri deмək, böcək sayırlar*

[1] *Təhlükə, 27.01.2014-cü ildə Iran dil fərhəngistanının qeyr fars xalqların ana dilin təhsil etməsinə verdiyi qərar*
*http:||www.eldar-guneyli.com|id|388-5.html*

*Türkcə yazmaq farsa hədə deyirlər*
*Farsca oxul türkə təhmil edirlər*
*Türkləri dilindən məhrum edirlər*
*Ğeyri farsın adı-sanı silinir*
*Yalnız farsın milli haqqı bilinir*

*O zamankı fars dövləti quruldu*
*Rasizmin təməli güclü qoyuldu*
*Ğeyri fars ölkədə inkar olundu*
*İfşa etməliyik gizli rasizmi*
*Xalqa verəməliyik milli bilinci*

*Qeyindilər "istiqlalın" tumanın*
*Ovladılar xalqımızın imanın*
*Yürütdülər ingilisin planın*
*Min il yatdıq sınadıq biz şahların*
*Ədalətli olar dediz şeyxlərin*

*Şeyxlərdə haqlara boyun əymədi*
*Ədalət adında bir iş görəmədi*
*Boş vədəsindən utanıb ölmədi*
*Haqq verilməz haqqımızı almağa*
*Türk ulusum durmalıdı ayağa. 28.01.2014*

## ***Ulusumuz düşünür, tutsaqlıqda yaşamına***

*Möhsün İbrahimi bəyə yanıt* (*1*)

*Deyirlər*: *"İran işçi, "komonisti" cibhələri"*[1]
*Söz verir qurtaracaq, tutsaqlıqdan "işçiləri"!*
*İşinə gəlmir ğeyri fars, xalqların istəkləri*
*Siz hələ əsdirirsiz, "iran işçi bayraqları"*
*Önəmli deyil sizə, xalqın milli maraqları*

*Özlərin adlandırır, işçilrə böyük"öndər"*
*Çalırlar şovinisti, fars xalqına gurlu dəflər*
*Rasizmə qarşı caysın, xalqda yaranmış fikirlər*
*Çoxlu töhmət vururlar, bu irançı "komonistlər"*
*"Komonist" qılıflı" bu İbrahimi*[2] *kimi "türklər"*

*Türklərdən alır dövləti, qat-qat farsdan çox vergi*
*Xərcələyir farslar üçün, nəşər edir qəzetlə dərgi*
*Vergi' lə gəlişdirir, fars dilində çoxlu sərgi*
*Ürünü olur bu gün, Möhsün kimi manqutları*
*Irqıçı qulluğunda, yetirdiyi satqınları*

---

[1]*Iran işçi "komonist" partiyası.*

[2] *Möhsün İbrahimi, iran işçi "komonist" partiyasının üyəsi.*

*Haqlarını almasına, xalq ayağa durubdur*
*Fars xalqının rasistləri, bugün çaş-baş olubdur*
*Manqurt olmuş, satqınların, indi rəngi solubdur*
*"Komonisti" markasiyla xalqımızı caydırır*
*Fars xalqına kölə olub, ötəkimi sapdırır!?*

*Bir ulus özümüzü, farslar kimi saymamışıq*
*Özgür bir xalq olaraq, milli haqlar almamışıq*
*İlk addım köləlikdən, çıxmamıza atmamışıq*
*Xalqım milli haqqını, istəyəndə "xər"[1] söylürlər*
*"Pan türkist" deyib dostağa nə təhər sürüyürlər!?*

*İlk öncə xalqı kütləvi aydınladmalıyıq*
*Vətəndə ki sərvətə bizlər yiyə durmalıyıq*
*İşçi, qadın haqların yasasını yazmalıyıq*
*Bağımsız yaşamağa, milli şüar olmalıdır*
*Dövlətini qorumağa, müstəqil hür olmalıdır*

*İrançı İbrahimi, işçilərin lideridir*
*Rasizmin işinə də, farsistanda gəlməlidir*
*İşçiyə farsistanda, düşüncəsin verməlidir*
*Xalqım ayağa qalxıb, ıstıqlalın alacaqdır*
*Hhaqqına yiyə durub, köləlikdən çıxacaqdır*

[1] "Eşşək"

*Ulusumuz vətəndə, partiyasın qurmalıdır*
*Fars rasizmi yurdumdan, bir yolluq qovulmalıdır*
*İran-baycan düşüncəsi, beynindən solmalıdır*
*İlk öncə vətənin, istiqlalı alınmalıdır*
*Başqa ulusa yardımlar, yanaşı olmalıdır*

*Ulusumu tutsaqlıq yaşamından oyadalım*
*Sömürgədə qalmağını bir yolluq qapadalım*
*Öz milli haqqımızı qan bahasına alalım*
*O zaman dayanacaq sərvətimin talanması*
*Dövəltini yaraldıb istıqlalın alınması.*

*03.02.2014*

## *Nasyonalizm ölkədə milli haqq ölçüsüdür*

*Möhsün İbrahimi bəyə yanıt (2)*

*Ulusumun dirçəlir yurdunda milli səsi*
*Çaş-başlığa gətirib çıxarıb Möhsün bəyi*[1]
*Milli haqqına varıb mənimsəyib sevməsi*
*Millətləşmək gəlişin iranda səviyəsi*

*Bu günlərdə "işçilər "komonisti" partısı"*[2]
*Əl-ayağa düşübdür fars meyilli carçısı*
*Xalqına yadırğamış İbrahimi-nin səsi*
*Farslara qulluq edir rasisti düşüncəsi*

*Buraxıblar ırqıçı farsın anti türklərin*
*Milli haqq dirçəlməsi irandak etnilkərin*
*Ortaya dolayıdan atırlar fikirlərin*
*Xalqın rasizmə qarşı döyüşün güclənməsi*

*Heç deməyir xalqının yaşayan xəritəsi*
*Ölkədə adlanır yalnız farsların səsi*
*Biz türklərə aiddir iran adlı ölkəsi*
*Sərvəti ulusumun yabancı xalqın səsi*

---

[1] *Manqurt olmuş özünü Azərbaycanlı tanıdan İran işçi "komunist" partiyasının üyəsi, Möhsün İbrahimi*

[2] *Iran işçi komonist partiyası(Hizbe' komoniste' kargəri Iran)*

*Sömürgəsəl durumda millətimiz bu anda*
*Doxsan ildir yadlaşır uşaqlarım Tehranda*
*Farsa kölə olmuşuq yaşayırıq "iranda"*
*Bağımsız olmağına yoxdur onun həvəsi*

*Bu ölkədə yaşyırlar çoxlu xalq azınlığı*
*Nəqədər vardır sizdə iranbaycançılığı?*
*Püfləyirsən ardından islambaycançılığı*
*Tükənibdir vətənə Azərbaycan simgəsi!?*

*Nasyonalizm ölkədə milli haqq ölçüsüdür*
*Bu istəyə vətəndə xalqımız yolçusudur*
*Haqları ibtal edən rasizmin sözcüsüdür*
*Bu yolu təhmil edən Möhsünün öz görəsi*

*Möhsün bəy cənabların fikirsəl düşüncəsi*
*"Dil ocağın" uluşma-gəlişmə səviyyəsi*
*Rasizmə qulluq edir fikirsəl işləməsi*
*Ğeyri fars xalqlarına qadağa verilməsi*

*Şovonistlər talayır yurdumuzun səvətin*
*Modernizə edirlər farslara lüt bölgəsin*
*Bağışlayır özgəyə Azərbaycan ölkəsin*
*Xalqımız işsiz qalır hər gündə kiçilməsi*

*Yüzdə yetmiş budcə tək  fars xalqına xərclənir*
*Otuz qalanı başqa uluslara çilənir*
*Dörd də-üç fars dililər məktəbdə bilgilənir*
*Ğeyri fars dərdilə yox sizdə` ilgilənməsi!*

*12.02.2014*

## *Ana dili nədir?*

*(Yönsəl (siyasi), düşündəmə, düşün bilim(fəlsəfi)*
*habelə tüzəsəl(hüquqi) anlamı)*

*Uşaq eşidər ilk ana dilində*
*Sonra öyrənər o döyüş elində*
*Başlar danışar öz dili telində*
*Dilimiz yaranıb gözəl səslərdən*
*Zamanla gəlişib özəl hislərdən*

*Dil uşağın ana lay lay səsidir*
*Ananın bətnində döyüş hissidir*
*Hislərdən yaranan düşüncəsidir*
*Kimsədən düşüncəni almaq olmaz*
*Başqa bir düşüncəyə qatmaq olmaz*

*Uşaq öz içində fikir yetirər*
*Yetirən fikrini dilə gətirər*
*Səslər formalaşıb dili bitirər*
*Yaranan dil düşünülmüş fikirdir*
*Düşüncəylə fikirin duyuş şəklidir*

*Qələmsiz səs heyvanlardan bəklənər*
*Çünki yalnız ormanlarda səslənər*
*Yaşam düzeyi topluqda əklənər*
*İnsanlar toplanıb birlik qurubdur*
*"Birlik dirlik dir" məsəl olubdur*

*Hər insanın doğma ana dili var*
*Öz dilində danışmağa meyli var*
*Yazıb yaratmağa özəl eli var*
*Dili yasaqlamaq heç müməkün deyil*
*Dilə yasaq qoyan kəs insan deyil*

*Bu dünyədə yaşayan hər ölkədə*
*Qurulmuş dilləri özəl ölçüdə*
*Danışır ev-eşiyində məktəbdə*
*Hər kəsin xoşdur öz dili özünə*
*Bəslədiyi ana dili sözünə*

*Dil adamın xarakterin dəyişər*
*Yazı ilə danişıq da gəlişər*
*Dil gəlişsə toplumuda gəlişər*

*Yazılmayan dil indiki zamanda*
*İtib gedər xalq bir -iki quşaqda*

*Ana dili  adamın kimliyidir*
*Kimlik hər insanın öz mənliyidir*
*Mənlik hər ulusu özəlliyidir*
*Bir xalqın dilini ondan alırsan*
*Toplumdan onların kökün qazırsan*

*Ana dili ən böyük bir sərvətdir*
*Höviyyətin tanıtdıran izzətdir*
*Bbalardan bizə qalmış şövkətdir*
*Dilin qorunması milli şərəfdir*
*Xalqına-vətənə milli görəvdir.*

*19. 02.2014*

## *Görəsən bu İrançılar kimlərdir?*

*Görəsən İrançı bəs nə istəyir?*
*Milli fəalları niyə pisləyir?*
*Milli dirəniş öz yolun izləyir*
*Xalqımı öz varlığına yönəldir*
*İrançını batlağına göməldir*

*Haqqını almağa xalqım durubdur*
*İrançınln umudunu vurubdur*
*İranistan çiçıkləri solubdur*
*İrançılar hirslənməsin, neyləsin?*
*Şovonizmə qulluq etsin, etməsin?*

*Bu gün milli partiyalar birləşir*
*Haq yolunda sal qayalar birləşir*
*Ev qurmağa qapı, divar birləşir*
*Xalqımızın milli haqqı tanınır*
*İrançının məzarları salınır*

*Deyirlərə ki; "bay bək" bizim yanlıdır!*
*Yaydığı vebsaytı pan iranlıdır!*
*Təbrizli deyil o, bir yalançıdır*
*Görünür ırqçı farsın quludur*
*Getdiyi yol isə düşmən yoludur!*

*Yurduna yabancı tək baxışı var!*
*Xalqına irançı tək naxışı var!*
*Bəlkədə saytıda fars axışı var?*
*Kölədir o, milli yolu getməyir*
*Vətən üçün heçdə qulluq etməyir*

*Irqıçı fars öz içindən çürüyür*
*Manqurtları arxasınca sürüyür*
*Çamır atmaq fikirilə yürüyür*
*Satqın, türk soylusu, satır kimliyin*
*Manqurt olur danır öz var mənliyin*

*Görəsən kimlərdir bu İrançılar?*
*Nələr etməmişlər bu satqınçılar?*
*Faşizm minib bu atları qamçılar?*

*Quzu dərisində kirli qurdların*
*Çamır atmaq olub işi bunların*

*Kimlər addım atıb özgür olmağa?*
*Çalışmışlar milli haqqın almağa?*
*“Baybak” bəy çalışır zırna çalmağa?*
*Ar olsun belə bir çamır atana*
*Öz yurdun-yovasın satır alana*

*Tənqidçi ulusun açar gözlərin*
*Təklif edər doğru düzgün sözlərin*
*Alt-üst edər düşmənlərin izlərin*
*Tənqidçi deyil bu “Aydın” təbrizli*
*Saxlayıb irançı olduğun gizli*

*Satqınlar xalqına tanımalıdır*
*Vətənin haqları alınmalıdır*
*Dirəniş güclənib barınmalıdır*
*Ulusal bilinclə yüksələr millət*
*Bununla qurular milli bir dövlət.*

*23.04.2014*

## *Azərbaycan vətənimdir, qoymayaq batsın səsi*

*Çox saylı xalq yaşayır, bu iran ölkəsində*
*Hər şeyə "pars" 'la tanınır, bu viran ölkəsində*
*Milli futbol yığması, "parslar şahzadəsi"*
*Milli timdən qovzanmır başqa uluslar səsi*

*Qeyri farsdan güc alır dirçəldir fars adını*
*Mənimsəyir uğuru, özü dadır dadını*
*Fabrikalar, küçələr, alırlar, fars adını*
*Çox uluslu ölkədə batıb hamının səsi*

*İran, iraq savaşı, türklər zəfər çaldılar*
*Əldən gedən torpağı türk qanila aldılar*
*Savaş bitdi yenədə "Azərilik" saldılar*
*Zəfərlər olur farsın, batır türklərin səsi*

*Türk uğur qazananda, deyirki var ğeyrəti*
*Amma haqqın istəsə, fars göstərir nifrəti*
*Fars xərcləyir budcəni, türkə qalır zilləti*
*Bu yurdda bütün batıb ğeyri farsların səsi*

*Ğeyri farsa deyirlər, alaram qadasını*
*Öyrənirsə dilini, ağladaram anasını*
*Yaşadaram kölə tək, bunların hamısını*
*Bununla kəsilir onların xoş nəfəsi*

*Ərəbin nəftin satır, qazanır pul şöhrətini*
*Dilini yasaqlayıb, xalqı çəkir zillətini*
*Beləcə vətəndaşa, çəkdirirlər nikbətini*
*Ərəbi farslaşdırır daralır dar qəfəsi*

*Ğeyri farslar canla-malın, verəndə vətəninə*
*Farslar deyir, görəvindir, dodaq büzür elinə*
*Milli haqqın istəyəndə, tüpürür sifətinə,*
*"İran" adlı ölkənin, yayılır hər gün səsi*

*Yurdunda yetişibdir, numayəndə satqını*
*Təmsil edir farsları, satır türkün haqqını*
*Məclisdə də utanırlar, çəkələr türk adını*
*"İran" adlı ölkədən, püflənir farsın səsə*

*Xalqımızda milli şüur, yaradması lazımdır*
*Milli bilinc*[1] *manifestin tanıtması lazımdır*
*Vətənimi tutsaqlıqdan, qurtarması lazımdır*
*Azərbaycan vətənimdir, qoymayaq batsın səsi.*

*16.05.2014*

---

[1] *Ulusal bılınc (mıllı şuur) haqqında Otay butay vətəndir adlı bıtık (kıtab) Baltacı Araz qoşardan (şaırdən)*

***Utanmaq, bizlərə çox yaxşı şeydir***

***Birinci bölüm*(*1*):**

*Prezident seçgidə ovun tutdu*
*Verdiyi qərarı Həsən*[1] *unutdu*
*Urmu gölün suyunuda qurutdu*
*Haqqın istəyənə "haqdan" danışır*
*Gecə-gündüz haq-nahaqdan danışır*

*"Haqqqa" yetişməyə çəkirlər zülüm*
*Haqqın istəyənə deyilər ölüm*
*"Allah" qanunila verirlər höküm*
*Təslim olmayanlar çəkilir bəndə*
*öldürüb meyidi verəməyir kəndə*[2]

[1] *Baş baxan Həsn ruhanı, tanınmış yalançı Həsn kilid*

[2] *Yüzlərcə insan dustaqlarda işkəncə altında öldürülür eləcə də meyitləri ailələrinə verilməyir. Örnək olaraq: Səttar Behişti kimilər, Kərc bölgəsində hakimiyyətə qarşı gənc bir işçı bir yazıya görə polis yönündən tutuqlanıb, yeddi günün içində işkəncə altında öldürüldüb, meyiti ailəsinə verilmədi.*

*Nədən ğeyri farsa bəs zülm edirlər?*
*Ağzı dolu haqlarından deyirlər!*
*Milli haqlarını tələb edənlər*
*Kafir olub bir yad adı alırlar*
*Kölə olsa vətəndaşı sayırlar*

*Yurdunun uğrunda canın verəndə*
*Sənə "iran" vətəndaşı deyirlər*
*Xalqın milli haqqın tələb edəndə*
*Ayırıcı ilə yağı görürlər*
*Üstəlik "türk xər"də adı verirlər*

*Özlərini, daha üstün görürlər*
*Ğeyri farsı özümləmə edirlər*
*Kimliyini silib "kölə" deyirlər.*
*Xalqım nədən "köləliyi" sevirlər?*
*Fars rasizmin istədiyi'lə gedirlər!*

### ***İkinci bölüm(2):***

*Xalqım, biliksizlikdən bu gün əzilir*
*Yabancı uyğarda bitib əriyir*
*Höviyyəti itib başsız yeriyir*
*Xalqa özümüzü papaq saymışıq*
*Bilgiləndirməkdən, uzaq qalmışıq*

*Sosyal, sanal dönyədə çalışrakıq*
*İt-at, pişik şəkillərin yayanıq*
*Xalqıma tərs baxıb uzaq qalanıq*
*Özümüzü vətənpərvər saymışıq*
*Sözdə diyə ulus sevər qalmışıq*

*Ulusçu adına şöhrət alanıq*
*Bugün türk xalqına yalan satanıq*
*Özünə millətçi adı qoyanıq*
*Xalqın cəbhəsində haray salırıq*
*Gələcəyə Həmid Karzay[1] yapırıq*

[1] *Masonlar yönündən Afğanistana seçilmiş Başbaxan(Prezidet)*

*Biz Azərbaycanlı aydın ağayıq*
*Xalqının dərdindən uzaq qağayıq*
*Boykotçular 'la həm avaz olanıq*
*Xalqını biliksiz qoyan dayağıq*
*Ümmətçi tərbiyə edən qoçağıq*

*Mediya yönətən, jurnal açanıq*
*Xalq adına çox deyib az qaçanıq*
*Yurddaşa yabancı tək baxanıq*
*Berloskoni[1], kimi yetən simovluq*
*Yazarları boykot edən qoçağıq.*

*05.06.2014*

*[1] Siloviyo Berleskoni italyıalı sahibkar habelə syasətçı, Avropa parlamentinin üyəsi; italyıanın keçəmiş baş Nazri*

# *Türk xalqı; nə zaman oyanacaqdır?*

*Nədən türkə başçısı üz çevirir?*
*Xalq onları zirvələrə yetirir*
*Yalan vədə bütün xalqa verilir?*
*Türk ulusun başqaları suçladır!*
*Xalqımızı öz vayına ağladır!*

*Nədən içimizdən satqınlıq çıxır?*
*Öz əlilə özün kökündən yıxır!*
*Xocalı, qırğını ürəklər sıxır*
*Erməni yalanı[1] dürtülür gözə!*
*Ciloluq[2] faciə çəkilmir üzə!?*

---

*[1] 2010-cu il Ermənistan'la anlaşma olayları kı xalqın basqısı səbəbinə hyata keçirilmədi.*

*[2] Cilovluq faciəsi, 1918-ci ilin mart ayında, minlərcə Azərbaycan türkləri, özəllik'lə Urmu, Xoy və Salmas şəhərlərində yaşayanların Ermənilər habelə cılolar (Asurilər) yönündən soyqırıma məəruz qaldıqları hadisə.*

*Azərbaycan param-parça olubdur*
*Güneyinə farslar yiyə durubdur*
*Türk dünyası bu işə göz yumubdur*
*Türklərin birliyi düşməni boğur*
*Türkə yağıçılıq ətraflı doğur!*

*İraqda, türkmanlar nədən boğulur?*
*Vətəni kərkukdan bugün qovulur?*
*Arxasında duran yoxdur ovulur*
*Öz yurdundan niye çölə atılır*
*Türk birliyi qara pula sarılır?*

*Türk xalqı nə zaman oyanacaqdır?*
*Varlığın yağıdan quruyacaqdır?*
*Özlərin qoruyub savunacaqdır?*
*Yurdun param-parça gözdən atılır!*
*Türk düşməni farsa nədən satılır?!*

*01.05.2014*

## *Mədrəsə açın ulusuma öz ana dilində*

*Xordada xalq hayqırıbab, rasizmə bildirlər*
*Türkcəm yasaq, farsca sərbəst olub, viran ölkədə*
*Türkün dilini tanıdın, egəmən rəsmi dili*
*Allah adı hakim olan, bugün "iran" ölkədə*

*Yurddaşımız harayladı, dövlət duysun bəlkə də*
*Haqqsızlıq harayını, anlatdı milli ölçüdə*
*Haraylar duyulmadı, arsız, kamalsız dövlətdə*
*Öz başına buraxılmış, bugün "iran" ölkədə*

*Azad qoyun ulusu, ana dilini istəsə*
*Ulusa doğal haqdır, ana dilində səsləsə,*
*Balasını oxudub, ana dilində bəsləsə,*
*Ədalətin olmadığı, bugün viran ölkədə*

*Xalq istəyi öz dilində varlığını öyəndə*
*Zindanlarda yatırlar, gənclərim sözün deyəndə*
*Allaha düşmən sayır, haqlarını istəyəndə*
*Edam sayı həddən aşıb, bugün viran ölkədə*

*Mədrəsə açın ulusuma, öz ana dilində*
*İnsana tanınmış haqdır, yaranmış yerlərində*
*Türk xalqına günahdır, türkü oxul istəyəndə?*
*İnsan dəyri olmayan, bugün viran ölkədə*

*Vergim gedir felistinə, xalqım ölür acından*
*Kimsə məhrum ola bilməz, ulusal varlığından*
*Yoxsa danışa bilməzlər, bunlar insanlığından*
*İslam adı hakim olan, bugün "iran" ölkədə*

*Allahdan danışarkən insan haqqını danırlar*
*Dini qanun yazdırıb, bizləri kölə sanırlar*
*Haq istəyən insanları, dustaqlara salırlar*
*Cəllad təkin hakim olan, bugün "iran" ölkədə*

*Türk dilində oxulları, açmalıyıq ölkədə*
*Parlaq günəş şafağını, saçmalıyıq ölkədə*
*Azərbaycan bayrağını, asmalıyıq ölkədə*
*Yurdumuza yiyə duraq, bugün viran ölkədə.*

*09.06.2014*

## *Azərbaycan nələr keçir başından?*

*Azərbaycan nələr keçir başından?*
*Burçalıya; ad verirlər Gürcüstan*
*Qurvə, Bicar tanıdılır Kürdüstan*
*Arşınla bölünür torpağın oban!*
*Astara, Ənzəli adlanır Gilan!*

*Qarabağ çıxmayıb bugün işğaldan*
*Minlər 'lə qoçağın qalıb sərgərdan*
*Ağdam`la füzuli olub biyaban*
*Işğalçılar deyir ora Ermənistan*
*Kürdlərin röyası böyük Kürdüstan*

*Ərdəbil, həmədan qalıb ayrıca*
*Kərəc, Savə olub sanki bir bağça*
*Torpağın doğranır param 'la-parça*
*Qəzvini, Zənqanı qurublar ustan*
*Azərbaycan adın pozublar ordan*

*Yabancı bir dili rəsmi sayıblar*
*Ğeyri farsın vəşiliyin yayıblar*
*Vətənin adını "iran" qoyublar*
*"İran" adı ilə farslaşdırırlar*
*Öz varlığından uzaqlaşdırırlar*

*Milli mənliyimi farslar danırlar*
*Biz türkləri alçaq bir xalq sanırlar*
*Bu günki yüz ildə geri qalıblar*
*Bu səbəbdən haqlarımı pozurlar!*
*Özəlrinə "çağdaş" adı qoyurlar!!!*

***Azərbaycan nələr geçir başından***

*24.10.2014*

## *Bütün analara sayğı və hörəmət*

*Bu gün anamın dünyasını dəyişməsi münasibəti ilə ğürbətdə ürəyimi boşaltmağa, yazqacımdan (qələmimdən) başqa bir çarə bulmadım.*
*27. 10. 2014*

*Ana! nə deyim, indi duydum qara xəbəri!*
*Tərk edib gedibsən, bu dünyanı şəhəri*
*Görməyəcək övladın, artıq ana gözləri*
*İlgini övladından, həmişəlik kəsibsən*
*83- il bizlərin, başı üstə əsibsən*

*Gecələr sən yatmayıb, bizə lay-lay deyibsən*
*Səsimizə səs verib, bizə sən hay veribsən*
*Bizim ağrılar ilə, illər ağrı çəkibsən*
*Gecələri yuxusuz, anam, sabah edibsən*
*İndi bizi tək qoyub, anam, hara gedibsən?*

*Ana insan başının, yaraşıqlı tacıdır*
*Övlad ölənə qədər, ananın möhtacıdır*

*Anasız həyat, anam, doğrudan çox acıdır*
*Ana dediyin toplum, həm də insan yaradır*
*Ana dediyin toplum, insanları yaşadır*

*Xalqa borcunu vermiş, sevimli anamızsan*
*İgidlərin anası, sən ərlər anasısan*
*Ürklərdə alışan, alavlar məkanısan*
*Vətənin sən igit, bar verən ağacısan*
*Övlad doğub böyütmüş, toplumun ocağısan*

*Övlad doğdun yaşadın, bir ömür çətinliklə*
*Böyütdün uzaq qaldın, yaşadın sən həsrətlə*
*Sən heç yaşam görəmədin, üzüldün beləliklə*
*Ürəkdəki sevgini, verdin sən övladına*
*Bizlər də verməliyik, vətən ilə buduna*

*Hakimiyyət ayırdı, xalqını ölkəsindən*
*Qürbtə sürgün etdi, öz ana vətənindən*
*Ailə ayrı düşdü, biri- o birlərindən*
*Analar göz yaşını, tökdülər ayrılıqdan*
*Ğəm-kədərlər bezdirdi, çökdülər acılıqdan*

*Məhəmmədin[1] verdin, sən əldən, əlli səkkizdə*
*Nisgililə yaşadın, son qalmış ömüründə*
*Məzarını görəmədin, onun, qaldı gözündə*
*Dedin: görüm qəbrini, nəfəs qalsın içimdə*
*Ölməyib yaşyır o, hələ xalqın içində*

*Qürbət yerdə gedirlər, insanlar bugün göyə!*
*Vətənə gələnmirlər, bircə ana görəməyə!*
*Dözərmi ana qəmə, belə həsrət qüssəyə?*
*Ana kimi istədin, sən də uşaq görəsən!*
*Gözlərin həsrət çəkdi, birgün işıq görəsən!*

*Beləcə qatılıram, mən də kədərinizə*
*Sizin başız sağ olsun, deyim öz elimizə*
*Ana insan sevgisin, bəslər ürəyinizə*
*Hörmət qoyun yaşamda, öz valideynizə*
*Sevgi, saygı görərsiz, sizdə öz nəsilinizdə*

*27.10.2014*

---

[1] *Şair Baltacı Araz(Məhəmməd Məhəmməd əli oğlu)*

## *Ayrılıq*

*Hər ayrılıq ürəkdə bir vüsalın dağıdır*
*Bacı qardaş ayrılığı göz yaşının yağıdır*
*Bölünmüş bir ulusun birləşməli çağıdır*
*Sömürgəlik güneydə hələ də davam edir*
*Quzeyimdə soydaşım hər gün inkişaf edir*

*Bir ulusu ayırmaq istəyirsənsə vətənindən*
*Yetər o ulus dilini kəsəsən məktəbindən*
*Bu düşüncə yürütülür "iran" fars dövlətindən"*
*Dilini alsan əlindən, yadırğar mənliyindən*
*Ümmətçilik əyitimi, ayırar kimliyindən*

*Xalq varlığın qoruyub hörmətə layıq bəslənir*
*Suç vardırsa özlərində araması səslənir*
*Suçu başqa adamlarda görəmək yersiz əkslənir*
*Hörəmətini saxlamayan adamları minərlər*
*Türk "xər" deyib tarixindən həyatını silərlər*

*Ulusumuz oyanıb özünə gəlməlidir*
*Doğal haqqın tanıyıb, keçmişin bilməlidir*
*Haqqını pozanların gözünə girməlidir*
*Ana dilin öyrənməsi zərəridir kimlərin?*
*Başqa soylu etnikləe 'lə fərqi nədir bizlərin?*

*Ulusumuz kimliyini qoruması lazım dır*
*Başı uca olduğuna düşünməsi lazım dır*
*Kölə kimi varlığına son qoyması lazım dır*
*Şərafət'lə bir yaşama dizə çökməz hər insan*
*Dağlar dələr igid təkin buzlar qırar ər insan.*

*01.01.2015*

## *Sərbəst ölkə bəsləyər vətən sevər insanlar*

*İşğal olunan yurdun ulusu işsiz qalar*
*Malın, sərvətin satıb igidi başsız qalar*
*Kimliyini sildirib ölkəsi aşsız qalar*
*Yad dilində oxuyub yazar onun dediyin*
*Höviyyətin itirib giyər düşmən geyimin*

*İşğalçılar özünü zəngin, üstün tutarlar*
*Başqa xalqı "zir-zibil" həm də alçaq sayarlar*
*Xalqı milli bilinçdən geridə saxlayarlar*
*Vətən sevər kişiyə yad adını qoyarlar*
*Tüm bilincsiz insanları rahat satını alarlar*

*Manqurt olmuş bir insan itirər mənliyini*
*Kölə kimi yaşayıb düşünər sənliyini*
*Tarixini unudub silib atar dilini*
*İşğalçı danar onun, kimliyini kökündən*
*Höviyyətini pozar yaşadığı yerindən*

*Sərbəst ölkə bəsləyər vətən sevər insanlar*
*Xalqla-vətən uğrunda malın-canın qoyanlar*
*Keçmişinə soyuna sahab diyə çıxanlar*
*Xalqın dilin kültürün savunarlar gözü tək*
*Varlığını qoruyub saxlayarlar sazı tək*

*Vətən bəslər xalqına gəlişmiş gən ozanlar*
*Ölkəmizə lazımdır cəsur, igid cəvanlar*
*Yurdu yaddan quruyan şocaətli insanlar*
*Kültürlə-dil gəlişdirən bacarıqlı ustadlar*
*Toplumunu gəlişdirən cəsarətlio ozmanlar*

*Millətimiz fikirlər üst-üstünə qoysalar*
*Vətənimin dərdini gündəm plan saysalar*
*Əl bir olub birləşib bir ürəkdə olsalar*
*Azərbaycan özgürlük havasın yaradacaq*
*Vətənimi sümürgə, işğaldan qurtaracaq*

*Mən "Eldar"am, yurdumun vətən sevər oğluyam*
*Tutsaqlıqda doğulub el-oba vurğunuyam*
*Odlar yurdu Azərbaycan türk elimə bağlıyam*

*Özgürlük carçısıyam hür yaşama səslərəm*
*Qurtuluş saz simini, ürəyimdə bəslərə.*

*10.02.2015*

## *Müsəlman ərkəklərimizin qadına dönyə baxışı*

*Nə çağ nə zəmanə sənin yaşamın?*
*Adamı yaradıb nələr edirsən?*
*Uşaq doğub ağrısını çəkirsən*
*Gündüzlər bələyib verisən dilək*
*Gecələr yatmayıb verisən əmək*

*Evlənən zamanı ərə gedirsən*
*Özünü ərinə təslim edirsən*
*Uşağı ataya nədən verirsən?*
*Qadın olduğunda olursan alçaq!*
*Boşanan zamanı alırsan talaq!*

*Evləndikdə bakirə qız sevirsən*
*Savaşda sən ana bacı söyürsən*
*Kişiyə hər şeyi sərbəst görürsən*
*Soy-ad gələndə öz adın deyirsən*
*Talaqda qadının haqqın yeyirsən!*

*İrs böləndə ikisini yeyirsən*
*İkidə birini qıza verirsən*
*Amma özünü çox üstün görürsən!*
*Bərabər bir yaşamda sən dilərsən!?*

*Nə söhbəti kişilikdən edirsən?*

*İstəyəndə sən qadının döyürsən*
*Dörd arvadı həm də həlal görürsən*
*Kişi-kişi özünüdə öyürsən*
*Əlindən də uşağını alırsan*
*Ağlar gözlə onu yola salırsan*

*İnsan yaranışın nəslidir qadın*
*Toplum quruluşun vəslidir qadın*
*Yaşam mənasının, əslidir qadın*
*Qadınla birliyi aldın həyatda*
*Qadınsız heç yoxdur adın həyatda*

*Kişi-qadın yaranır bir cisimdən*
*Heç üstün deyildir biri-birindən*
*Bir həyat uluşur hər ikisindən*
*Həyat yoldaşıma budur baxışım*
*Gözəl sevgi yaşamımda naxışım.*

*12.03.2015*

## *Bahar gəlir yeni iliz mübarək olsun*

*Boran şaxta gedir gəlir yazın gözəl günləri*
*Doğa fəsli dəyişilir açsın dügünləri*
*ağacların çiçəkləri ağ-apbağ sünbülləri*
*Novruz gəlir bayramınız mübarək olsun sizin*

*Evləriniz, bağ baxçanız güllənib çiçəklənsin*
*Xalqımızın züvq-moralı daha da həvəslənsin*
*Mənimsəsin baçasın həmdə ki bənövşəsin*
*Oğuz bayramınız mübarək olsun sizin*

*Yeni ildə arzılaram düşmən fitnəsi solsun*
*Azərbaycan millətində mənlik qururu olsun*
*Özgürlüyə millətimiz milli bilincə dolsun*
*Bahar gəlir bayramınız mübarək olsun sizin*

*Arzım budur qarabağım tamamən azad olsun*
*Qaçqınlarımız yenədə, həmən yurduna dönsün*
*Bayramını bundan sonra doğma yurdunda tutsun*
*Bahar gəlir bayramınız mübarək olsun sizin*

*Arzım budur bir daha Azərbaycan olsun*
*Fars rasizmi ölkəmdən el-obamdan qovulsun*
*Qüneydə yaz bayramı  quzey ilə doğrultusun*
*Gözəl oğuz bayramınız mübarək gülsün sizin*

*Ənənədir aşıq çalar toy-busat da sazını*
*Şənlik edib bütün aləm çəkər nazını*
*Eşidəllər mahnısın həm də şən avazını*
*Oğuz bayramınız hər il mübarək olsun sizin.*

*18.03.2015*

## *Rasisti bir düşüncəni yayanlar*

(*halu, Məmməd Rza ali pəyamlar*)

*Halu, Məmməd Rza "geri qalan" lar*
*Rasisti bir düşüncəni yayanlar*
*İran xalqın fars kökənli sayanlar*
*Tariximi təhrif edib yazırlar*
*Farsları "fərhixtə" adlandırırlar*

*Ərəblərə "Ərəb dilli" deyənlər*
*Türklərə "türk dilli" adı verənlər!*
*Bəluçları "Bəluç dilli" görənlər*
*Ulusları "fars-iranlı" sayırlar!*
*İran diyə farsa "məxsus" yayırlar!*

*Deyir: mooqul xalqı bizi türk edib!*
*Bəluçlara qonşusu dil öyrədib!*
*Ərəblər də qonşudan dil öyrənib!*
*Türk, Bəluç, Ərəb, Lor, Fars kökənlidir*
*İran diyə bugün "Fars" ölkəsidir!!!*

*Gah deyir İranda çox xalq çalışır*
*Millətlər dilini deyib danışır*
*Birlikdə bir dildə yazıb alışır*
*Deyirəm hər güldə özəl ətir var*
*Hər xalqda daşlanacaq səbir var*

*Gahda deyir İranda tək bir xalq var*
*İranda millətim farsca danışar*
*Yazıb-oxumağa farsca yazışar*
*Irqçı bir düşüncəsin yayırlar!*
*Çağdaş yaşam bir havasın çalırlar!*

*Fars xalqına yüksək gözlə baxırlar!*
*Özlərini "zəngin" bir xalq sayırlar!*
*Yerə göyə sahab diyə çıxırlar!*
*Silah 'la xalqları farslaşdırırlar!*
*Ğeyri farsı ölkədə alçaldırlar!*

*Deməyir bu parslar dilin itirib*
*Türkcə, Ərəbcədən bir dil bitirib*
*Deyirlər firdovsi belə bildirib*

*Farscanı biganə dildən arıdıb!?*
*Bu dili yenidən kökdən yaradıb!?*

*Hindular bölgəyə gəlmədən öncə*
*Türk oturaq idi farslar gəlincə*
*Adından bəllidir yerli əlincə*
*Seksən ildir təhrif olur tarixlər*
*Fars rasizmi höküm sürür bugünlər*

*Seksən il öncə də, darbə[1] yapanlar*
*Darbə ilə qüdrətə gəlib çatanlar*
*Savadsız Rzanı taxta aanlar*
*Türk sülaləsini yıxdı yurdunda*
*Irqçı dövləti qurdu iranda*

*İngilis gücilə damad olanlar*
*Gerici fikirdə yatıb qalanlar*
*Ürünü olubdur "alı canan"lar*
*Firdovsi tək yanlış fikir yayırlar*
*Gəlişməyib alçaq fikir qalırlar*

---

[1] *çevriliş*

*Yüz ildir vətənə asıblar qara*
*Gözlərin yumublar namusa, ara*
*İgidlər başını çəkiblər dara*
*Gətiriblər bunlar eli də zara*
*Özün öz əlinlə et dərdə çara ...*

***Oyan xalq, oya..................n...***

*18.05.2015*

## *Vətənim Azərbaycan*

*Vətənim ğeyrətim dir*
*Varlığı izzətim dir*
*Qoruyub tanıtması*
*Ğururla şövkətim dir*

*Vətənim kimliyim dir*
*Kimliyim bayrağım dır*
*Bayraq ilə yurdumuz*
*Varlığım yaşamım dır*

*Vətənim varlığım dır*
*Varlığı həyatım dır*
*Məskənim baş tacım dır*
*Xalqı qardaş, bacım dır*

*Vətən mənə namus dır*
*Varlığı qürurum dır*
*Doğduğu ana yurdum*
*Qoruması borcum dır*

*Vətənim duzla yanır*
*Yağı suyun bağlayır*
*Urmu gölün ağrısı*
*Ürəkləri dağlayır*

*Daşnaklar yurdu alır*
*Xocalı odda yanır*
*İnsan soyqırımına*
*Dövlətlər yandan baxır*

*Vətənim işğalda dır*
*Vətəndaşım qaçqın dır*
*İşğalçı ermənin*
*fars, rus arxasında dır*

*Vətənim işğalda dır*
*Dili yasaqlanıb dır*
*Millətin uymasına*
*Ürəyim yanmaqda dır*

*Vətəniyəm mərəndim dir*
*Bakı, Xoy Tərbizim dir*
*Ayrı salmış arazım*
*Şuşa da əzizim dir*

*Vətənim Həmədan dır*
*Ona canım qurban dır*
*Arazın iki tayı*
*Adı Azərbaycan dır.*

*30.07.2015*

## Vətənim özgür olsa!

*Xalqımız oyanmasa*
*Haqların alanmasa*
*Dövlətin quranmasa*
*Vətənimiz[1] yox olar*

*Kültürün qorumasa*
*Dilini danışmasa*
*Oxulda yazılmasa*
*Vətənimiz yox olar*

*Varlığına varmasa*
*köləlikdən çıxmasa*
*Müstəqil yaşamasa*
*Vətənimiz yox olar*

*Vətənin tanıtmasa*
*Özünü savunmasa*

[1] *Güney Azərbaycan dan söhbət gedir*

*Yurdunda qalanmasa*
*Vətənimiz yox olar*

*Kökünü tanımasa*
*Tarixin oxumasa*
*Yurdunu qorumasa*
*Azərbaycan yox olar*

*Xalqım ayağa dursa*
*Faşizmi yurddan qovsa*
*Müstəqil ölkə olsa*
*Xalqımız azad olar*

*Vətənim özgür olsa*
*Sərvəti yurdda qalsa*
*İş yeri yurdda qursa*
*Vətənim abad olar*

*Türk dili azad olsa*
*Özünə məktəb açsa*
*Bağımsız dövıət qursa*
*Özü bir Ölkə olar*

*Dövlətimiz qurulsa*
*Otay butay bir olsa*
*Xalqım birlikdə qalsa*
*Vətənim güclü olar.*

*05.08.2015*

## *Kim olduğumu mən tanıtım sizə*

*Deyirlər danışım deyim siz elə*
*Kiməm, haraylıyam tanıtım belə?*
*Yumuru təpəni gətirim dilə*
*Hörmətli -babanın adını sizə*
*Kəndimiz adlanır yuxarı"Dizə"*

*Eyvansara, Mişov dağlar döşündə*
*İsti keş, qəleysax axır çölündə*
*Suyunu içmişəm mən bəy gözündə*
*"Dizə" kəndi Azərbaycan bölgəsi*
*Mərəndə Mişovdan düşən kölgəsi*

*Mişova gedərdik uşqun dərməyə*
*Dərib gətirərdik evdə yeməyə*
*Həm də gözəl göyçək dağı gəzməyə*
*Mişovda içəsən, sərin buzlu su*
*Dad verər pəndiri, uşqun soğzusu*

*Mərənd bölgəsində var çoxlu təpə*
*Mişovdan aşağı yumuru təpə*

*Eyvansara bir də hümmətli təpə*
*Mərəndim yerləşir dağ dərəsində*
*Meyvə-ət yeyəsən bağ zəmisində*

*Gedirdim gəzməyə türk ölkəsində*
*Danışırdım iran fars ləhcəsində!*
*Özümü tanıtdım türkəm əslində!*
*Sordular harada doğdun, bu dildə?*
*Türkcəmiz yoxdur sən deyən ləhcədə?*

*Olmuya farscada sən dil açmısan?*
*Eyitimin fars dilində almısan?*
*Bəlkə də türkcəyə farsca qatmısan!*
*Deyillər yaranıb, bir farsca ləhcə!*
*Azəri*  adlanıb, uydurma türkcə!*
**-fazəri*

*Çalışdım dilimi təmiz öyrənəm*
*Qatil yad dilindən mən təmizlənəm*
*Farscadan əl çəkib bəlkə silkənəm*
*Xalqımı türkcəyə meyilləndirəm*
*Yazımı türkcədə genişləndirəm*

*Bir neçə il bundan öncə qələmi*
*Ələ aldım yazam kədər-ğüssəmi*
*Ürünü olub dır yurdumun ğəmi*
*Xalqıma tanıtam milli haqların*
*Toxumu əkilsin özgür bağların*

*Orta gənc yaşımda ğurbətə qaçdım*
*Vətəni görməyə özləmdə qaldım*
*Ğürbətdə vətənin ğəminə yandım*
*Qurtuluş yolunun sazını çaldım*
*“Eldar”am düşüncə payımı yazdım.*

*30.09.2015*

## *Zəfərlər marşını babəklər çalar*

*Medyada  şairlər hərgün yazışır*
*Biri-birlərilə gözəl yarışır*
*O biri tar ilə sazla çalışır*
*Vətənin durumu hər gün qarışır*
*Bəziləri mutlu eşqdən danışır*

*Savədə, Salmasda farsca söyləşir*
*Batıda, Urmu, Xoy Makın kürdləşir*
*Xalqımız necə tez fazəriləşir!*
*Şairlər medyada bax sərgilənir!*
*Gənclərin farscanı ancax öyrənir!*

*Farslar bizi asimilə ediblər*
*Türkləri iranda inkar edirlər*
*Ulusum yuxlayıb huşdan gediblər*
*Vətənə lazımdır milli şairlər*
*xalqına bilinc lə bilgi versinlər*

*Seksən ildir keçmişimiz silinir*
*Vətən ilə varlığımız itilir*
*Millətimiz fars içində kiçilir*
*Aydın, yatmış xalqın gözünü açar*
*Gözü açılan xalq, yolunu tapar*

*Ulusu yuxladan şair izlədir*
*Başın kəhlik təkin qarda gizlədir*
*İki-üç quşaqda farsa bənzədir*
*Türk xalqı yerində azəriləşir*
*xalqımız məktəbdə fazəriləşir*

*Zəfərlər marşını babəklər çalar*
*Xalqına vətənə fikirlər qılar*
*Aydın olan xalqım haqqını alar*
*Baltacı Araz tək bitiyin yazar*
*Ulusun paslanmış qafasın açar*

*Paslanılmış qafa açılsa qanar*
*Özgələr yazdıran tarixi danar*
*Vətənə xalqına ürəkdən yanar*
*Ana yasasını, tarixin yazar*
*Taptalanmış milli haqların yazar. 13.10.2015*

## *Milli hərəkətə polad lazım dır*

*Arazın yaşamı sürdü dəyişimə*
*Milli görəv düşdü mənim üstümə*
*Yazısın yetirəm öz millətimə*
*Millətin dərdləri çoxdur bürünür*
*Nəzəriyyəçimiz yoxdur sürünür*

*Ulusum öz milli haqqın istədi*
*Ərəkə yüz ildən bəri yetmədi*
*Çünkü vətən ideolog verəmədi*
*İdeolog dirənişə yön verər*
*Ərəkə yetməyə düzgün son verər*

*Hədəfsiz liderin başı sərilər*
*Milli dirənişin yolu əyilər*
*Hərəkətə yiyə durar dəlilər*
*Milli hərəkətə sədəf lazım dır*
*Sədəfə düşüncə hədəf lazım dır*

*Vətən ideolog yetirdi bizə*
*Baltacı Arazı millətimizə*

*{zündən yadıgar qoyubdur sizə*
*Milli hərəkətin manifestini*
*Ərəkə yetirsin məmləkətini*

*Vətənin sonucu azad olmaq dır*
*İşğalçını yurddan çölə atmaq dır*
*Sirvətlərimizə yiyə durmaq dır*
*Araz özgürlüyün yolun çözüb dır*
*İstiqlala gedən yolun sunub dır*

*Uyqarlaş 'la, otay-butay vətəndir*
*Vətən 'lə xalq inqilaba gələ dir*
*İstiqlalın təməlni bilən dir*
*Xalqın qurtuluşa gedən yolu dır*
*oxuyub yaymasaq kimin suçu dır?*

*24.10.2015*

## *Vətəndaşım, İgidim dur ayağa*

*Vaxtı deyil yatmağın bu havada*
*Sizi səsləyir vətəndə el haraya*
*Vətəndaşım igidim dur ayağa*
*Seksan ildir işğaldadır vətənin*
*Yurdun qurtarmağa yoxdur həvəsin*

*Mahmud Əfşar cizdi türkə planlar*
*Yad dilini türkə rəsmi saysınlar*
*Oxulda oxusun farsca uşaqlar*
*Alınsın millətin dili əlindən*
*Silinsin varlığı dili elindən*

*Dilini unudan türk vətəndaşlar*
*Özgə kültüründə tam formalaşar*
*Keçmişi kökündən lap uzaqlaşar*
*Vətən ilə xalqa o xor yanaşar*
*biganə olduqca o manqurtlaşar*

*Öz soyuna söyəknməyən dildaşlar*
*Farsca əyitim almış, siz vətəndaşlar*
*Özünə "iranlı" deyən soydaşlar*
*Ana dilinizdən uzaqlaşırsız*
*Kölə olmağızdan utanmayırsız?*

*Vətənim, manqurtlar nədəndir azır?*
*Dilini unudub əcəmi yazır?*
*Biganə olmuşlar kökünü qazır*
*İtirir soyunu öz mənliyini*
*"Azəri" tanıdır öz kimliyini*

*Türkləri İranda inkar etməsi*
*Firdovsinin biz türklərə ad verəməsi*
*şovinisti düşüncənin meyvəsi*
*Asimilə fikrin təməli olub*
*İranda rasisti dövləti qurub*

*Fars türkü medyada vəhşi tanıdır*
*Türk dilini kafir dilə yansıdır*
*Bu nədəndən haqlarını yandırır*

*Xalqı alçaqlığa çaş-baş saldırır*
*Haq istəyən dustaqdan baş qaldırdır*

*Fars xalqının yüksək aydın olması!*
*Ğeyri farsa təhqir gözlə baxması!*
*Türk ulusun alçadmağa varması!*
*Uşağa tərbiyə metod yapması!*
*Tovalet firçası olub qələmi*
*Ölkədə kültürün olub təməli*

*Fars rasizmin bu tip çağdaş olması!*
*Böylə bir kültürə yetib çatması,*
*Tovalet firçasıla söz yazması!*
*Türk xalqını farsa tam oxşadması!*
*Türkə yaraşmaz bu xalqla yaşasın*
*Qərarını verib daha boşasın*

*Hayqırıram xalqım bəlkə oyana*
*Səsimi yay bütöv Azərbaycana*
*Vətən işğaldadır qoyma yubana*
*Vətəndaşım igidim dur ayağa*
*Milli dövlət haqqımızdır qurmağa. 07.11.2015*

## *Araz, içim yanır bəsdir ağlatma*

*Araz, içim yanır bəsdir ağlatma*
*Xəzərə axırsan bir uzun yolda*
*Göz yaşı silinmir çıxır bağrıma*
*Vətənimi böldün qaldın ortada*

*El dərdini eşit bütöv budunda*
*Yurda çəkdin divar sən ortasında*
*Gərçəkləşdir onu bütöv yurdunda*
*Ağlatdın milləti sən arxasında*

*Yaşatdın elini sən ayrılıqda*
*Xalqım ayrı qalıb illər o tayda*
*Bacı qalıb qardaşından uzaqda*
*Nisgillər qaladıq bizlər bu tayda*

*Bu tayda qalmışıq zülmün altında*
*Burda dilim yasaq olub xalqına*
*Kimliyim tanınır farsın adında*
*Irqçı fars, xalqın düşüb canına*

*Bağımsız o tayda yarandı gülün*
*Yaratmış ulumuz Məmmd Əminin*
*Üç rəngli ay-ulduz şanlı bayrağın*
*Tanınmış bayrağı öz vətənimin*

*Xalqım deyir "haray-haray mən Türkəm"*[1]
*Hayqırırlar illər buyu yurdunda*
*Şuşa, gəncə, xuya vətən deyərəm*
*Azadlıq harayın çəkir "iranda"*

*"Xalqım deyir Azərbaycan bir olsun*
*Baş kəndi bakı ya xud təbriz olsun"*
*Parçalanmış yurdum həmən qovuşsun*
*İllər boyu ayrılığa son qoysun.*

[1] https:||www.youtube.com|watch?v=iGesDy2vpZc

*"Arazı ayırdılar*
*Lil ilə doyurdular*
*Biz sizdən ayrılmazdıq*
*Zor ilə ayırdılar"*

*Çəkdilər bizə divar*
*Veribdi xalqım qərar*
*Millətim birləşəcək*
*Sökülər köhnə divar*

*Verilib yeni qərar*
*Qalmasın köhnə divar*
*Millətim ayaqdadır*
*Ayrılıq izin pozar.*

*06.03.2016*

## *Qarabağ çağırır bizi haraya*

**Bir vətən boğulur məndə*[1]*
*bir mən darıxır bu vətəndə*

**Çoxdandır ki bir köhnə uçuq səs*
*məni səslər...**
*Bu nə səsdir ki axı yanqını var?*
*Çox böyük həsrəti var*
*qarqışı var*
*Bu nə səsdir?*
*bu nə haydır?*
*Görəsən başqa duyan var bu səsi?*

*Ax...*
*Necə sızlar ürəyim*
*Bu inilti ...*
*bu sızıltı ...*
*Canıma düşdü gizilti*

---

[1] **- 2 dəfə oxunsun*

*Nə qaranlıqdı bu səs!!!*
*nə soyuqdur ?*
*üşüdüm ...*

«*Əzizinəm qarabağ,*
*Şəki, Şirvan, Qarabağ*
*Aləm cənnətə dönsə*
*yaddan çıxmaz qarabağ.*»

*Səni duydum,*
*səni bildim...*
*bu səs ...*
*Ana vətənin parçalanmış ürəyindən ucalır,*
*Erməni tapdağı altında qalan torpağımızdan güc alır*
*sozalır...*
*dərd əlindən qocalır*

*Qarabağ şikəstəsin şənliyimizdə oxumaqla*
*Vətənin çağrışına hay-haray olmaz*
*Xocalı soy qırımı...*
*Düşmənin etdiyi basqın...*
*Tar-kamanla basılan torpaq alınmaz*

*Düşmənə həddini bildirmək üçün*
*Ildırım tək şaxacaqsan*
*Yağının şum gözünə*
*Ox olub sancılacaqsan*
*Qarabağ torpağını*
*Qan verib qurtaracaqsan*

*Qarabağ unutmayıb, unutmayacaq*
*Gözünü yollardan asmış...*
*Qulağını birə milyon didərgin düşən qoçaqların*

*Ayaq səsinə yatırtmış*
*Kəsin qayıdarlar deyə*
*Cənnət qoxulu havasını...*
*Yam-yaşıl meşələrini...*
*Qutsal torpağını...*
*Özgürlük buxçasında quruyub saxlamış*

*Qarabağ bizi çağırır:*
*E hey igidlərim...*
*E hey qoçaqlarım...*

*Topraqdan pay olmaz*
*Rus, Fars, Erməni daşnakları*
*Bu diyarda bəxtiyar olmaz*

**Biz vətənə sahab çıxmasaq əyər...**
*Vətən bizə necə sahab çıxar?*
*Bu bizim tarixi topraqlarımız...*
*Bu bizim babalardan miras qalan sərvətimiz*

**Biz vətən naminə can verməliyik*
*Qanımızdan ona hay verəməliyik**

**Qarabağ vətənimdir*
*türkün yurdu qalacaqdır*
*Üç rəngli bayrağımız*
*şuşadan asılacaqdır.**

*09.04.2016*

## *Milli şüar nə deməkdir?*

*Çalış, düşün varlığına*

*Özün tanı sən yurdunda*
*Varlığını öz budunda*
*Keçmişinə bax soyunda*
*Öz-özünlə daha barış*
*Kimliyinlə sən ol tanış...*

*Qoyma vətən yaddan çıxa*
*Çalış yağı yurddan çıxa*
*Kölə fikiri başdan çıxa*
*Öz kökündən küsmə barış*
*Keçmişinlə sən ol tanış...*

*Koroğlular ünvanısan*
*Türk ulusun qoçağısan*
*Dədə Qurqud ocağısan*
*Öz xalqınla daha barış*
*millətinlə sən ol tanış...*

*Xalqın sevn, xalqın danar?*
*Milli adla xalq adlanar*
*Hər bir ad bir şam tək yanar*
*Burdan başlanar oyanış*
*Kültürünlə sən ol tanış...*

*Çalış, düşün varlığına*
*Vörəvin ödə xalqına*
*Türk adını qoy uşağına*
*Ulusuna daha qarış*
*Vəteninlə sən ol tanış...*

*Ruslaşıb rusca danışma*
*Farslaşıb farsa qarışma*
*Manqurt yaşama alışma*
*Ana dilində yaz, danış*
*Türk dilinə sən ol tanış...*

*04.07.2016*

## *Babək qayıt tez qalaya*

*Babək qayıt tez qalaya*
*Xalqı çağır sən haraya*
*Yardımcı ol bu yaraya*
*Mollalar xalqı taladı*

*Xalq ovlandı din yağına*
*Ərəb dini bayrağına*
*Sərildi zülm ayağına*
*İran xalqın din caladı...*

*Xalqım gəlir bəz qalaya*
*zülüm çıxıb ərş əlaya*
*Millət düşüb düz çalaya*
*Xalqımızı qəm yaladı*

*Kölə olduq biz yadlara*
*Xalqım qalıb pis hallara*
*Ğeyrət getdi haralara?*
*Biz türkləri yad doladı*

*Zülmün evi bərbad olsun*
*Yurdum gərək azad olsun*
*Vətən görüm abad olsun*
*Ürəklərdə dərd qaladı*

*Dilim olubdur qadağa!*
*Xalqı basırlar dustağa!*
*Nə yatıbsan dur ayağa!?*
*Ürəyimi dərd daladı.*

*12.07.2018*

## *Bu Gecə*

*Xoş görürəm əzizlərim*
*Altmış yaşımdır bu gecə*
*Siz üçün bir yazı yazdım*
*Eşidək sazla bu gecə*

*Ürək dərdim əzizlərim*
*Vətənimə var bu gecə*
*Ailəmlə soydaşlarım*
*Mənə həmdəmsiz bu gecə*

*Könlümdə xoş arzılarım*
*Xalqım üçün var bu gecə*
*Ay ulduzum işıq saçsın*
*Şənlik sizə yar bu gecə*

*Arazımın sağı solu*
*Mənə mehmandır bu gecə*
*İki yerə bölünsəkdə*
*Birləşdirdim mən bu gecə*

*Araz, dərdim səndən dərin*
*Axma belə, dur bu gecə*
*Ayrılığın kökün qurut*
*Birliyi sən qur bu gecə*

*İllərdir ki həsrət baxır*
*Xalqım butay dan o taya*
*Parçalanmış xalqım gərək*
*Birgələşsin, çün bu gecə*

*Mən "Eldar"am, Vətən üçün*
*Arıularım xoş bu gecə*
*Sərhədləri sındırıram*
*Birləşsin elim bu gecə.*

*04.07.2019*

## *Mənə söylə virus sənsən yoxsa mən?*

*Korona budur mənim səndən istəyim*
*Birlikdə oturaq deyim sənə mən*
*Başladın yaşamın nəzmin pozmağa*
*Mənə söylə virus sənsən yoxsa mən?*

*Mən baxmıram şiəyə ya sünnüyə*
*Kafir olsun ya ki müsəlman deyə*
*Qırx il insanlığı atdım çöplüyə*
*İndi söylə virus sənsən yoxsa mən?*

*Allah deyib olam insana hakim*
*Qırx ildir olmuşuq İrana hakim*
*Suriyyə, İraqa, Lıvana hakim*
*İndi söylə virus sən-sən yoxsa mən?*

*Allah, Məhəmmədi təmsil edənəm*
*Doğru düz müsəlman yolu gedənəm*
*Allah əmri ilə sözü deyənəm*
*İndi söylə virus sən-sən yoxsa mən?*

*Hər yerdə tikirəm bir imamzada*
*Nəzir-niyaz pulu versin bu ada*
*Məhəmmədin nəsli gəlsin imdada*
*İndi söylə virus sənsən yoxsa mən?*

*Din, məzhəblə pozdum insan ağlını*
*İmamzada tikdim qoyam adını*
*Şəfaxana olsun soyam cibini*
*İndi söylə virus sənsən yoxsa mən?*

*Gör neçə yüz məddah yaratmışam mən?*
*Cəhl ilə xurafat banısıyam mən*
*Ümmətçi yetirən başçısıyam mən*
*İndi söylə virus sənsən yoxsa mən?*

*Xums-fitrə, nəzr-zəkat yığıram malı*
*Altıma salıram bahalı xalı*
*Allahıma şükür olmuşuq varlı*
*İndi söylə virus sənsən yoxsa mən?*

*Olmaz bağlıyasan imamzadamı*
*Od vurub alasan hər bir zadımı*

*Allah verib mənə əba tacımı*
*İndi söylə virus sənsən yoxsa mən?*

*İnsan nədir dəyər verə bilmirəm*
*İnsanlıq gözündə görə bilmirəm*
*İnsan məktəbilə deyə bilmirəm*
*İndi söylə virus sənsən yoxsa mən?*

*Hardan gəldin günüm dönübdür yasa*
*Nnəzir-niyaz gəlmir boşalıb kasa*
*Nəft də satılmayır dolsun tasa*
*İndi söylə virus sənsən yoxsa mən?*

*Dünyaya səpilib mən-mən deyirsən*
*Demokrat virus adı seçibsən*
*İşimiz eynidir böyük deyilsən*
*İndi söylə virus sənsən yoxsa mən?*

*Qırx il boyu kəsdik insan haqqını*
*Bizə qarşı insan qoyan adını*
*Qoymadıq ala o insan dadını*
*İndi söylə virus sənsən yoxsa mən?*

*Nəfti satıb cibə doldurmuşam mən*
*Surıyə, İraqda xərcləmişəm mən*
*"Həşd əlşəbi" yaradmışam mən*
*İndi söylə virus sənsən yoxsa mən?*

*Bəşar Əsədləri saxlamışam mən*
*İnsanlar qırılsa utanmaram mən*
*Adam öldürməkdə sınanmışam mən*
*İndi söylə virus sənsən yoxsa mən?*

*Millət yoxsuldursa düşünmürəm mən*
*Yetim ac ölsə də xərcləmərəm mən*
*Atum fabrikası tikdirənəm mən*
*İndi söylə virus sənsən yoxsa mən?*

*Allah yaradıbdır səni Vuhanda*
*Çinlə, İran yaydı səni cəhanda*
*Utanmırsan xalqın canın alanda*
*İndi söylə virus sənsən yoxsa mən?*

*Mənə müzür olub çıxdın qarşıma*
*Bənövşə yağını çəkdim altıma*

*Düzəlməyə çıxıb getdim vilama*
*İndi söylə virus sənsən yoxsa mən?*

***Korona bu sözlərə dözməyib, belə cə yanıtladı*:**

*Adam ağılı pozan vırus kökusən*
*Cəhəl ilə xorafat nağıl yükusən*
*Dava, dərman, sabın, alkolla vaksən*
*Bilim inkışafın sən bilməlisən*

*Yaşam varlığından yaranmışam mən*
*Məscid mənbərləri bağlamışam mən*
*Alkol azadlığın yaşadmışam mən*
*Bilim qarşısında sən çökəməlisən*

*Ömərünüzə son qoydum bitəməlisn*
*Fırıldaqçılığa son vermlisən*
*Ya ki ağlınızı dəgişməlisən*
*Aydın olmayacaq, sənin kimi sən.*

*13.03.2020*

*Mən*

*"Eldar"am, yurdumun vətən sevər oğluyam*

*Tutsaqlıqda*

*doğulub el-oba vurğunuyam*

***Odlar yurdu***

***Azərbaycan***

*türk elimə bağlıyam*

***Özgürlük** carçısıyam hür yaşama səslərəm*

***Qurtuluş** saz simini, ulusuma bəslərəm*

**Eldar Güneyli – Almanya**

**2021**

www.eldar-guneyli.com



**Eldar Güneyli** adı ilə tanınan Yunus Məmmədəli oğlu, Həmzə nəvəsi 1959-cu ilin iyul ayının dördündə Güney Azərbaycanın Mərənd bölgəsində yerləşən **Yuxarı Dizə** „Dizac Olya“ kəndində dünyaya göz açdı. Orta təhsilini doğma Dizə kəndində, ardını isə Mərənd şəhərində başa çatdırıb. Beş il Tehran şəhərində yerləşən „Taleqani Tibb Kompleksi” adlanan tibb fakultəsində çalışab. 1986-cı ildə təhlükədən dolayı ana yurdunu tərk etmək zorunda qalıb, Almaniyaya sığınaraq siyasi fəaliyyətini orada davametdirtməkdədir.

IT-Networking üzrə ali təhsil alan Eldar Güneyli, bütün sürgünlük çağlarında, Güney Azərbaycanın bağımsızlıq uğrunda bugünə kimi siyasi, mədəni eləcə də ədəbiyyat alanında fəaliyyət göstərib habelə bu sahədə əlindən gələni əsirgəməyib.

Ulusumu tutsaqlıq yaşamından oyadalım
Sömürgədə qalmağını bir yolluq qapadalım
Öz milli haqqımızı qan bahasına alalım
O zaman dayanacaq, ölkəmizin talanması
Dövlətini yaraldıb, istiqlalın alınması.

Vətən
Yaınlar Qurupu